Avropada Təhlükəsizlik və
Əməkdaşlıq Təşkilatı
**Bakı Ofisi**

# AZƏRBAYCANDA MƏHKƏMƏ PROSESLƏRİNİN MONİTORİNQİ

## 2010-cu il

© ATƏT-in Bakı Ofisi

## Mündəricat

*Minnətdarlıqlar*....................4
*Qısaldılmış sözlərin siyahısı*....................5
*Cədvəllərin siyahısı*....................6

***I. Giriş*....................7**

*2010-cu il üzrə Məhkəmə Proseslərinin Monitorinqi Hesabatı*....................7
*ATƏT-in Bakı Ofisinin Çoxillik Məhkəmə Monitorinqi Proqramı*....................8
*Məhkəmə Monitorinqi Proqramı ilə bağlı ATƏT prinsipləri və öhdəlikləri*....................8
*Hesabatın məzmunu*....................9

***II. Əhatə dairəsi və metodologiya*....................10**

*2010-cu il Məhkəmə Monitorinqi Proqramında əvvəlki illərə nisbətən irəliləyişlər*....................10
*Azərbaycan Respublikası Hökuməti ilə əməkdaşlıq*....................11
*Məhkəmə müşahidəçilərindən ibarət layihə qrupunun seçilməsi və təyinatı*....................11
*Monitorinq və hesabatın formatı və ardıcıllığına dair digər müddəalar*....................11
*Məhkəmə işlərinin və məhkəmə proseslərinin seçilməsi*....................11
*Monitorinq hesabatının təhlili üçün baza*....................12
*Monitorinq olunmuş işlərin və məhkəmə iclaslarının əhatə dairəsi*....................12
*İbtidai araşdırmalar barədə məhdud çərçivəli əlavə məlumatlar*....................13

***III. Nəticələr və tendensiyaların təhlili*....................18**

Ədalətli məhkəmə araşdırması standartlarına və təqsirləndirilən şəxsin hüquqlarına ümumən riayət edilməsi....................18
*Qısa icmal: səmərəli hüquqi təmsilçilik, tərəflərin bərabərliyi və bütövlükdə ictimaiyyətin ədalət mühakiməsinə inamı*....................18

1. Açıq məhkəmə araşdırması hüququ....................22
*Açıq məhkəmə iclasları ədalətli məhkəmə araşdırmalarının əsas təminatıdır*....................22
*Bir neçə istisnalarla açıq məhkəmə araşdırması hüququna ümumən riayət edilir*....................22
*Müsbət və mənfi tendensiyaların qısa icmalı*....................22

2. Məhkəmə iclaslarının başlanmasının gecikdirilməsi....................23
*Məhkəmə iclaslarının gecikdirilməsi məhkəmələrdəki idarəetmə məsələsi kimi*....................23
*İclasların başlanmasının ləngiməsinin sıx qrafikli məhkəmə zallarında gecikdirmələri daha da artırması*....................23
*Müsbət və mənfi tendensiyaların qısa icmalı*....................24

3. Məhkəmə araşdırmasına qədər müvəqqəti azad edilmə hüququ....................24
*Hüququn əsasları*....................24
*Qətimkan tədbirlərinin seçilməsi üçün meyarlar*....................25
*Müsbət və mənfi tendensiyaların qısa icmalı*....................26

4. İşin müstəqil və qərəzsiz məhkəmə tərəfindən araşdırılması hüququ....................31
*Hüququn əsasları*....................31
*Hakimlərin davranışı onların müstəqilliyinə və qərəzsizliyinə dair əsaslı şübhələr doğura bilər*....................31
*Hakimlərin davranışı məhkəmənin müstəqilliyinə və qərəzsizliyinə dair suallar doğurur*....................32
*Təqsirləndirilən şəxsin çəkişmə prinsipinə əsaslanan məhkəmə araşdırmasında*

*sübutlara ədalətlə baxılması hüququ*......................................................................................................32
*Müsbət və mənfi tendensiyaların qısa icmalı*................................................................................33

5. Təqsirsizlik prezumpsiyası ..........................................................................................................33
*Təqsirsizlik prezumpsiyası ədalətli məhkəmə araşdırmasının ən fundamental aspektlərindən biridir* ................................................................................................................33
*Metal barmaqlıqlardan və qandallardan həddən artıq istifadə* ..........................................................34
*Dövlət ittihamçıları qeyri-münasib davranışdan və dildən istifadə edirlər*..........................................34
*Müsbət və mənfi tendensiyaların qısa icmalı*................................................................................35

6. Tərəflərin bərabərliyi .................................................................................................................35
*"Ədalətli balans" mənasında tərəflərin bərabərliyi ədalətli məhkəmə araşdırmasının əsas elementlərindən biridir*..............................................................................................................35
*AİHM-in müvafiq presedent hüququ*...........................................................................................36
*Hakimlər tərəfindən təqsirləndirilən şəxslərin vəsatətlərinə, sübutlarına və çarpaz dindirmə hüququna ittiham tərəfi ilə bərabər qaydada baxılması* ...........................................36
*Hakimlər ittiham tərəfi üçün əlverişli şərait yaradırlar*......................................................................37
*Müsbət və mənfi tendensiyaların qısa icmalı*................................................................................38

7. Vəkillə səmərəli şəkildə təmsil olunmaq hüququ ..........................................................................38
*Vəkillə səmərəli şəkildə təmsil olunmaq hüququnun əsas anlayışı*....................................................38
*Hakimlər təqsirləndirilən şəxsin vəkillə səmərəli şəkildə təmsil olunmaq hüququnun təmin edilməsinə görə məsuliyyət daşıyır*..........................................................................................39
*Vəkillə səmərəli şəkildə təmsil olunmaq hüququndan imtina* ............................................................39
*Dövlət hesabına təyin olunan müdafiəçi tərəfindən səmərəli şəkildə müdafiə olunmaq yolunda maneələr və "pulsuz" hüquqi yardım*.........................................................................40
*Dövlət hesabına müdafiəçinin təyin olunmasında prosessual problemlər* ...........................................40
*Vəkillə təmsil olunmaq və məhkəmə prosesində ləngimələr*...............................................................40
*Müsbət və mənfi tendensiyaların qısa icmalı*................................................................................41

8. Pis rəftar barədə iddiaların səmərəli şəkildə araşdırılması .............................................................47
*İşgəncə və digər pis rəftar formaları ilə bağlı hüquqi öhdəliklər*........................................................47
*Hakimlər çox vaxt pis rəftar barədə iddialarla bağlı araşdırma aparılmasını təmin etmirlər* ............48
*Potensial olaraq qəbuledilməz sübutlardan və şübhə altına alına bilən məhkəmə ekspertizası sübutlarından istifadə* .................................................................................................................48
*Müsbət və mənfi tendensiyaların qısa icmalı*................................................................................49

9. Əsaslandırılmış qərarların çıxarılması hüququ ..............................................................................50
*Hakimlərin qərarlarını əsaslandırmaqdan ibarət hüquqi öhdəliyi* ......................................................50
*Hakimlər qərarlarını əsaslandırmırlar*......................................................................................... 50
*Qərarların yazılı şəkildə əsaslandırılmaması apellyasiya şikayəti verilməsinə maneədir*...................50
*Müsbət və mənfi tendensiyaların qısa icmalı*................................................................................50

***IV. Tövsiyələr* ..................................................................................................................................52**

## Minnətdarlıqlar

ATƏT-in Bakı Ofisi ("Ofis") 2010-cu ilin yanvarından dekabrınadək həyata keçirilmiş "2010-cu il üzrə Məhkəmə Proseslərinin Monitorinqi Proqramında" ("Proqram") iştirak edənlərin hamısına, habelə, bu hesabatın hazırlanmasına köməklik edənlərə təşəkkür etmək istərdi.

Proqram cənab Əlövsət Əliyevin rəhbərlik etdiyi "Tender Monitorinq Mərkəzi" adlı Azərbaycan QHT-si tərəfindən Ofisin Qanunun Aliliyi və İnsan Hüquqları Şöbəsinin məhkəmə monitorinqi qrupu ilə sıx məsləhətləşmə şəraitində həyata keçirilib, qrupa xanım Qumral Aslanova, cənab Kamran Bağırov və cənab Rolf Merkoll (*Rolf Merckoll*) daxil idi, ümumi nəzarət isə xanım Monika Martinez (*Monica Martinez*) tərəfindən həyata keçirilirdi. Məhkəmə proseslərinin monitorinqini aparan qrupun ("Layihə qrupu") üzvləri Ofisin Qanunun Aliliyi və İnsan Hüquqları Şöbəsinin əməkdaşları tərəfindən seçilib və məhkəmə proseslərinin gündəlik monitorinqi vasitəsilə faktların və əsasların toplanması metodları üzrə gündəlik tövsiyələrlə və ixtisaslaşmış təlimlə təmin ediliblər. "Tender Monitorinq Mərkəzi" Ofisin icraçı tərəfdaşı olaraq Layihə qrupuna rəhbərlik edib. Ofis, həmçinin, məhkəmə monitorinqi metodologiyasının hazırlanmasına görə ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosuna (DTİHB) və bu hesabatı nəzərdən keçirmiş və redaktə etmiş beynəlxalq ekspert Pol Qarlikə (*Paul Garlick*) minnətdardır.

Ofisin Qanunun Aliliyi Şöbəsi bu proqramı Ədliyyə Nazirliyi ilə və Nazirliyin, Məhkəmə-Hüquq Şurasının, məhkəmə hakimiyyətinin və Ofisin Qanunun Aliliyi və İnsan Hüquqları Şöbəsinin nümayəndələrinin daxil olduğu ixtisaslaşmış işçi qrupu ilə sıx əməkdaşlıq şəraitində həyata keçirib. Bu işçi qrupu Proqramın nəticələri ilə bağlı konstruktiv fikir mübadiləsinə şərait yaradıb. Ofis davamlı və məhsuldar əməkdaşlığa görə Azərbaycanın dövlət orqanlarına minnətdardır və Azərbaycanda qanunun aliliyinin və insan hüquqlarına hörmətin daha da gücləndirilməsi üçün bu hesabatdakı tövsiyələri həyata keçirməkdə Hökumətə, məhkəmə hakimiyyətinin və digər hüquq sahələrinin mütəxəssislərinə və vətəndaş cəmiyyəti təmsilçilərinə köməyini davam etdirməyə hazırdır.

Ofis xüsusən Ədliyyə Nazirliyinə, Məhkəmə-Hüquq Şurasına, Prokurorluğa və Vəkillər Kollegiyasına[1] xüsusi təşəkkürlərini və minnətdarlıqlarını bildirmək istərdi. Ofis bu Proqramın həyata keçirilməsini mümkün etmiş büdcədənkənar yardımlara görə Finlandiya, Almaniya, Amerika Birləşmiş Ştatları və Niderland Hökumətlərinə xüsusilə minnətdardır.

[1] Vəkillər Kollegiyası Azərbaycanda vəkillər birliyinin ekvivalentidir.

## Qısaldılmış sözlərin siyahısı

| | |
|---|---|
| CPM | Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi |
| AŞ | Avropa Şurası |
| AİHK | İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası |
| AİHM | Avropa İnsan Hüquqları Məhkəməsi |
| İQAK | İşgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınmasına dair Avropa Konvensiyası |
| MSHBP | Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt |
| MHŞ | Məhkəmə-Hüquq Şurası |
| HRM | Hüquq Resurs Mərkəzi |
| DTİHB | Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu |
| Ofis | ATƏT-in Baklı Ofisi |
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| İHÜB | İnsan hüquqları haqqında Ümumi Bəyannamə |
| BMT İQK | İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaya qarşı BMT Konvensiyası |

## Cədvəllərin siyahısı

1-ci cədvəl. 2010-cu ildə cinayət işləri üzrə çıxarılan hökmlərin növləri............................................12
2-ci cədvəl. Bakıda monitorinq edilmiş məhkəmə işlərinin sayı........................................................13
3-cü cədvəl. Bakıda monitorinq edilmiş məhkəmə iclaslarının sayı ...................................................14
4-cü cədvəl. Regionlarda monitorinq edilmiş məhkəmə işlərinin sayı................................................15
5-ci cədvəl. Regionlarda monitorinq edilmiş məhkəmə iclaslarının sayı ............................................15
6-cı cədvəl. Monitorinq edilmiş cinayət işlərinin cinayət kateqoriyaları üzrə faiz göstəricisi .............18
7-ci cədvəl. 2010-cu ildə monitorinq edilmiş ədalətli məhkəmə araşdırması hüququnun pozuntularının faiz göstəricisi..........................................................................................21
8-ci cədvəl. 2009 və 2010-cu illərdə monitorinq edilmiş ədalətli məhkəmə araşdırması hüququnun pozuntularının müqayisəli diaqramı ...............................................................21
9-cu cədvəl. Məhkəmə proseslərinin başlanmasının gecikdirilməsi....................................................24
10-cu cədvəl. Qətimkan tədbirlərinin seçilməsi........................................................................................26
11-ci cədvəl. Qətimkan tədbirlərinin seçilməsi: Bakı...............................................................................28
12-ci cədvəl. Qətimkan tədbirlərinin seçilməsi: Regionlar.......................................................................29
13-cü cədvəl. Müqayisəli diaqram: Qətimkan tədbirlərinin seçilməsi .................................................30
14-cü cədvəl. Monitorinqi aparılmış işlərdə hüquqi yardımın göstərilməsi .........................................42
15-ci cədvəl. Hüquqi yardımın göstərilməsi: Bakıda monitorinqi aparılmış işlər...............................44
16-cı cədvəl. Hüquqi yardımın göstərilməsi: Regionlarda monitorinqi aparılmış işlər.......................45
17-ci cədvəl. Müqayisəli diaqram: Hüquqi yardımın göstərilməsi.........................................................46
18-ci cədvəl. Müqayisəli diaqram: Məhkəmə qərarlarının elan olunması............................................51
19-cu cədvəl. Məhkəmə qərarlarının müqayisəli diaqramı.....................................................................52

# I. Giriş

*2010-cu il üzrə Məhkəmə Proseslərinin Monitorinqi Hesabatı*. ATƏT-in Bakı Ofisi ("Ofis") 2010-cu il üzrə bu Məhkəmə Proseslərinin Monitorinqi Hesabatını Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurası ilə sıx əməkdaşlıq şəraitində Ədliyyə sektorunun inkişaf etdirilməsinə dair Dövlət Proqramına[2] uyğun olaraq hazırlayıb. Buna görə də Ofisin 2010-cu il Məhkəmə Monitorinqi Proqramının tərkib hissəsi olan Hesabat 2010-cu il üçün Qanunun Aliliyi və İnsan Hüquqları Şöbəsinin "insan hüquqları və qanunun aliliyi sahəsindəki beynəlxalq öhdəliklərə və standartlara uyğun olaraq qanunyaratma proseslərini təşviq etmək və müvafiq daxili qanunvericiliyi tətbiq etmək, eyni zamanda ölkədəki məhkəmə hakimiyyəti və digər hüquq sahələri təmsilçilərinin peşəkarlığının artırılmasına yardım etmək"[3] kimi proqram məqsədlərinin həyata keçirilməsinə aiddir.

2010-cu il Məhkəmə Monitorinqi Proqramının[4] məqsədləri bunlardır:

- ədalət mühakiməsinin həyata keçirilməsinin yaxşılaşdırılması, əhalinin məhkəmə sisteminə inamının artırılması;
- təqsirləndirilən şəxsin ədalətli məhkəmə araşdırması hüququna əməl olunmasının gücləndirilməsi;
- məhkəmə proseslərinin müvafiq milli qanunlara və beynəlxalq standartlara uyğun aparılmasının müvafiq dövlət orqanları ilə birlikdə təqib edilməsi; və
- milli qanunların beynəlxalq standartlara uyğun olması üçün onlara zəruri dəyişikliklərin edilməsindən ötrü qanunvericilik orqanları ilə birlikdə informasiya mübadiləsi aparılması.

DTİHB-nin Məhkəmə Monitorinqi Metodologiyasına uyğun olaraq,[5] Bakı Ofisi Məhkəmə Monitorinqi Proqramı çərçivəsində fəaliyyətləri həyata keçirib. Bu fəaliyyətlərə aşağıdakılar daxil olub: məhkəmə müşahidəçilərinin seçilməsi və təlimləndirilməsi,[6] məhkəmə proseslərinin monitorinqi, işlərin gedişatını qiymətləndirmək üçün müşahidəçilərlə mütəmadi görüşlərin keçirilməsi, məlumatların və ilkin hesabatların təhlili və məlumatlarda yer alan nəticələrlə bağlı müvafiq dövlət orqanları ilə və digər maraqlı tərəflərlə mütəmadi müzakirələr. Bundan əlavə, 2010-cu

[2] Ədliyyə sektorunun inkişaf etdirilməsinə dair Dövlət Proqramı, 2009-20013-cü illər.
[3] 2009-cu ilin dekbarında ATƏT-n Daimi Şurası tərəfindən təsdiq edilmiş *2010-cu ilin vahid büdcəsi*.
[4] *Layihə təklifi: Azərbaycanda ədalət mühakiməsinin həyata keçirilməsinin monitorinqi – 2010-cu il Məhkəmə Monitorinqi Proqramı*; layihə müddəti: 1 yanvar 2010-cu il – 31 mart 2011-ci il; 24 sentyabr 2009-cui ildə təsdiq edilib.
[5] Məhkəmə araşdırmalarının monitorinqi: hüquqşünaslar üçün soraq kitabı, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, 2008-ci il (*Trial Monitoring: A reference manual for practitioners*, by the OSCE Office for Democratic Institutions and Human Rights, 2008). 2010-cu ildə ATƏT-in Bakı Ofisi məhkəmə araşdırmalarının monitorinqinin həvalə olunduğu və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun institusional yaddaşını möhkəmləndirmək üçün məhkəmə monitorinqi məsələləri ilə bağlı hüquqi icmal hazırlayan aktiv üzv kimi DTİHB-nin Məhkəmə Monitorinqi üzrə Məşvərət Şurasına daxil oldu.
[6] Hesabatda "monitorinq aparan" və "müşahidəçi" sözləri bir-birini əvəz edə bilən sözlər kimi istifadə olunacaq.

ilin layihə müddətində Ofis məhkəmə hakimiyyəti və digər hüquq sahələrinin peşəkarlarına təlim keçilməsi və onların peşə bacarıqlarının artırılması üçün əvvəlki məhkəmə monitorinqi hesabatlarının tövsiyələrindən istifadə edib. Ofisin Hüquq Resurs Mərkəzləri (HRM)[7] bu fəaliyyətləri Bakıda və regionlarda təşkil ediblər.

*ATƏT-in Bakı Ofisinin Çoxillik Məhkəmə Monitorinqi Proqramı.* Bundan əlavə, 2010-cu il üzrə Məhkəmə Proseslərinin Monitorinqi Hesabatı Ofisin Məhkəmə Monitorinqi Proqramı ("Proqram") tərəfindən 2003-cü ildən bəri müxtəlif metodologiya və formatlardan istifadə edilməklə hazırlanmış çoxillik geniş qeydlər və tövsiyələrə yeni bir tövhədir.[8] 2010-cu il hesabatı dövründə Məhkəmə Monitorinqi Proqramı çərçivəsində ümumilikdə 361 məhkəmə işi və 1243 məhkəmə prosesini monitorinq etmək üçün ixtisaslı hüquqşünaslar cəlb olunub. Mahiyyət etibarı ilə Məhkəmə Monitorinqi Proqramı "ATƏT prinsiplərinin və öhdəliklərinin həyata keçirilməsinin, habelə ATƏT çərçivəsində Azərbaycan Respublikasının əməkdaşlığının təşviqi"[9] üçün Ofisin uzunmüddətli mandatını həyata keçirməsinə Qanunun Aliliyi və İnsan Hüquqları Şöbəsinin verdiyi töhfənin özəyini təşkil edir.

*Məhkəmə Monitorinqi Proqramı ilə bağlı ATƏT prinsipləri və öhdəlikləri.* İnsan Ölçüləri Konfransının Kopenhagen İclasının Sənədində[10] və digər beynəlxalq sənədlərin kontekstində müəyyən edilmiş ədalətli məhkəmə araşdırması standartları və təminatları ilə bağlı insan hüquqlarının və əsas azadlıqların müdafiəsi üçün ATƏT-ə üzv olan bütün dövlətlərlə razılaşdırılmış ATƏT prinsipləri və öhdəlikləri bunlardır:

> *5.9. – bütün şəxslər qanun qarşısında bərabərdirlər və heç bir ayrı-seçkilik qoyulmadan qanun tərəfindən bərabər qaydada müdafiə olunmaq hüququna malikdirlər. Bununla bağlı qanun hər cür ayrı-seçkiliyi qadağan edir və bütün şəxslərin hər hansı əlamətə görə ayrı-seçkiliyə qarşı bərabər və səmərəli müdafiəsinə təminat verir;*
>
> *5.10. – əsas hüquqlara hörmət edilməsinə və hüquq sisteminə xələl gətirilməməsinin təmin olunmasına zəmanət verilməsi üçün, hər kəs inzibati qərarlara qarşı səmərəli hüquqi müdafiə vasitələrinə malik olmalıdır;*

[7] Məhkəmə sistemi mərkəzsizləşdirildikdən və bununla bağlı regionlarda əlavə hüquqi resurslara ehtiyac yarandıqdan sonra Ofis Sumqayıt, Şəki, Gəncə və Lənkəran də daxil olmaqla Azərbaycanın dörd şəhərində Hüquq Resurs Mərkəzlərinə dəstək təşkil edib. Mərkəzlər yerli əhaliyə pulsuz hüquqi yardım göstərir və regionlarda hüquqşünaslar üçün təlim fəaliyyətlərinə dəstək verirlər. Onlar həmçinin resurs vasitələri rolunu oynayır və ziyarətçilərə kitabxanalar və hüquqi məlumat bazalarına onlayn çıxış təklif edirlər.

[8] 2003-2004, 2006-2007 və 2009-cu illərə aid əvvəlki Məhkəmə Monitorinqi Proqramları barədə ətraflı məlumat üçün və onların əhatə dairəsi üçün 2009-cu il Məhkəmə Monitorinqi Hesabatına bax.

[9] Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Bakı Ofisinin yaradılması haqqında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı ilə Azərbaycan Respublikası Hökuməti arasında anlaşma memorandumunun I maddəsi, 19 iyun 2000-ci il.

[10] ATƏT-in İnsan Ölçüləri Konfransının Kopenhagen İclasının Sənədi (1990), I maddə, 5.9-5.21-ci bəndlər.

*5.11. – şəxsə qarşı inzibati qərarlar tam əsaslı olmalı və bir qayda olaraq mümkün olan adi hüquqi müdafiə vasitələri orada göstərilməlidir;*

*5.12. – hakimlərin müstəqilliyi və dövlət məhkəmə xidmətinin qərəzsiz fəaliyyəti təmin edilməlidir;*

*5.13. – vəkillərin müstəqilliyi, o cümlədən onların işə qəbul edilməsinə və fəaliyyətinə aid şərtlərə münasibətdə, tanınır və qorunur;*

*5.14. – cinayət proseduruna aid normalara cinayət təqibi ilə bağlı dəqiq müəyyən edilmiş səlahiyyətlər və cinayət təqibinə qədərki və onu müşayiət edən tədbirlər daxil olmalıdır;*

*5.15. – cinayət törətməkdə ittiham edilərək tutulmuş və ya həbsə alınmış hər bir şəxs tutulmasının və ya həbsinin qanuniliyinin müəyyən edilməsi üçün dərhal hakimin və ya qanunla bu funksiyanı yerinə yetirmək səlahiyyəti verilmiş digər şəxsin yanına gətirilmək hüququna malikdir;*

*5.16. – Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir;*

*5.17. – cinayət törətməkdə ittiham olunan hər kəs şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə belə müdafiədən pulsuz istifadə etmək hüququna malikdir;*

*5.18. – cinayət əməlinin elementləri qanunla aydın və dəqiqliklə müəyyən edilmədiyi halda heç kəs həmin cinayət əməlinə görə ittiham oluna, məhkəməyə cəlb edilə və ya məhkum oluna bilməz;*

*5.19. – hər kəs qanunla təqsiri sübut olunmayana qədər təqsirsiz sayılır;*

*5.20. – milli səviyyədə qanunun aliliyinin təmin edilməsində insan hüquqları sahəsindəki beynəlxalq-hüquqi sənədlərin əhəmiyyətini vacib sayaraq iştirakçı dövlətlər təsdiq edirlər ki, indiyə qədər qoşulmadıqları halda, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta; İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakta və digər müvafiq beynəlxalq hüquqi sənədlərə qoşulmaq haqqında məsələyə baxacaqlar;*

*5.21. – daxili hüquqi müdafiə vasitələrini tamamlamaq və üzv dövlətlərin öz üzərlərinə götürdükləri beynəlxalq öhdəliklərə hörmət etmələrini təmin etmək üçün üzv dövlətlər beynəlxalq orqanlarda ayrı-ayrı şəxslərin hüquqi müdafiəsi prosedurunu nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyası və ya Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın Fakultativ Protokolu kimi insan hüquqlarının müdafiəsinə aid regional və ya beynəlxalq konvensiyalara qoşulmaq haqqında məsələyə baxacaqlar.*

*Hesabatın məzmunu.* Aşağıdakı 2010-cu il üzrə Məhkəmə Proseslərinin Monitorinqi Hesabatında monitorinqin əhatə dairəsi qeyd edilir, nəticələrin çıxarılmasında və tendensiyaların təhlilində istifadə edilmiş məlumatların toplanması üçün Ofisin istifadə etdiyi metodologiya, habelə tövsiyələr və onların icrası üçün təklif olunan detallar əks olunur.

*Davam edən hüquqi və məhkəmə islahatları əsasında edilən irəliləyiş.* Hesabat dövründə "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası" haqqında qanunlara dəyişiklik

edilmişdir.11 Bu qanunvericiliyin tətbiqi ilə bağlı qəbul edilən iki prezident fərmanları12 məhkəmə sistemində əhəmiyyətli dəyişikliklər edib. Həmin dəyişikliklərə regionlarda yeni məhkəmələrin, o cümlədən ağır cinayətlərə dair məhkəmələrin13 və inzibati iqtisadi məhkəmələrin yaradılması daxildir.14

Yeni məhkəmələrin yaradılmasını nəzərə alaraq, mövcud iş yükünün azaldılması məqsədilə, hesabat dövründə seçim prosesindən uğurlu keçmiş 78 namizəd daxil olmaqla, hakimlərin sayı 600 nəfərə qədər artırılmışdır. Məhkəmə Hüquq Şurasının məlumatına əsasən hesabat dövründə məhkəmələrə verilən mülki işlərin sayı 15 faiz, iqtisadi şikayətlərin sayı isə 30 faiz artıb.

Bundan əlavə, hakimliyə namizədlər və hakimlər Məhkəmə Hüquq Şurası tərəfindən Ədliyyə Akademiyası və ATƏT-in Bakı ofisi daxil olmaqla digər yerli və beynəlxalq təşkilatlarla birgə təşkil edilmiş xüsusi təlim kurslarında iştirak etmişdir.

## II. Əhatə dairəsi və metodologiya

*2010-cu il Məhkəmə Monitorinqi Proqramında əvvəlki illərə nisbətən irəliləyişlər.* Özünün 2010-cu il Proqramı vasitəsilə Ofis məhkəmə işlərinin icraatında daxili qanunvericiliyə və ədalətli məhkəmə araşdırması barədə beynəlxalq standartlara riayət edilməsi ilə bağlı faktların və məlumatların toplanmasını davam etdirib. Əvvəlki illərdə Proqram çərçivəsində ayrı-ayrı məhkəmə proseslərindəki nöqsanlar qeydə alınıb və hesabatda əks olunub ki, bununla da həmin proseslərdə ədalətli məhkəmə araşdırması standartlarına riayət edilməsinin səviyyəsi nümayiş etdirilib. Müqayisə üçün qeyd edək ki, 2010-cu il Proqramında yenilik ondan ibarət olub ki, *ədliyyə sektorunda sistemdaxili müsbət və mənfi tendensiyaların* müəyyən edilməsinə və ədliyyə sektoru orqanları ilə, məhkəmə hakimiyyətinin nümayəndələri ilə və digər maraqlı tərəflərlə Ofisin *qarşılıqlı əlaqələrinin və müzakirələrinin* səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilib. Bu məqsədlə Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası, məhkəmə hakimiyyəti və Ofisin nümayəndələri işçi qrupu yaratmaq üçün səylərini birləşdiriblər, həmin qrup Proqramın nəticələrini müzakirə etmək üçün mütəmadi olaraq toplaşır və çatışmazlıqların mümkün həll yollarını müəyyən etmək üçün əməkdaşlıq edir.

---

[11] 22 iyun 2010-cu il tarixində

[12] 15 iyul və 9 avqust tarixlərində qəbul edilib

[13] 15 iyul 2010-cu il tarixli Prezident Fərmanına əsasən, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi əsasında Bakı Ağır Cinayətlər Məhkəməsi və Lankaran, Gəncə və Şəkidə Ağır Cinayətlərə dair İşlər üzrə üç yeni Məhkəmə yaradılmışdır.

[14] Yeni İnzibati İqtisadi Məhkəmələr 2011-ci ilin yanvar ayından Naxçıvan Muxtar Respublikasında, Gəncə, Sumqayıt, Şəki, Şirvan və Bakıda (2 məhkəmə) fəaliyyətə başlayıb.

*Azərbaycan Respublikası Hökuməti ilə əməkdaşlıq*. 2010-cu il Proqramının icrasına başlamazdan əvvəl Ofis Proqramın əhatə dairəsini və məqsədlərini Ədliyyə Nazirliyi ilə müzakirə edib və məhkəmə proseslərini monitorinq etmək üçün Ofis tərəfindən seçilmiş məhkəmə müşahidəçiləri barədə Ədliyyə Nazirliyinə məlumat verib. Ofis həmçinin Ədliyyə Nazirliyindən xahiş edib ki, müşahidəçilərin məhkəmələrdə iştirakına şərait yaradılsın.

*Məhkəmə müşahidəçilərindən ibarət layihə qrupunun seçilməsi və təyinatı*. İlkin dövrdə Ofis məhkəmə proseslərinin monitorinqini aparan Layihə qrupunu seçib və həmin qrupa ATƏT-in məhkəmə monitorinqi standartlarına uyğun olaraq təlim keçib. 2010-cu ildə Ofis məhkəmə müşahidəçilərini Azərbaycandakı müxtəlif yurisdiksiyalı məhkəmələrə, o cümlədən birinci instansiya, apellyasiya məhkəmələri və Ali Məhkəməyə göndərib. Daha konkret desək, Ofis paytaxt Bakı ərazisində məhkəmə müşahidəçilərinin on dördünü birinci instansiya məhkəmələri, Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsi və Bakı Apellyasiya Məhkəməsində müşahidə aparmağa yönəldib. Dörd müşahidəçi isə Şəki, Şirvan, Gəncə, Lənkəran və Sumqayıt regionlarında məhkəmə proseslərini izləyiblər.

*Monitorinq və hesabatın formatı və ardıcıllığına dair digər müddəalar*. Ofis məhkəmə proseslərinin monitorinqi zamanı faktların və əsasların toplanmasında istifadə üçün hərtərəfli hesabat forması və ya sorğu anketi hazırlayıb və Layihə qrupu üzvlərinə təqdim edib. Layihə qrupunun vəzifəsi toplanmış məlumatları qiymətləndirməkdən və ya onlara dair rəy bildirməkdən daha çox, əsas diqqətini bütövlükdə məhkəmələrin daxili qanunvericiliyə və ədalətli məhkəmə araşdırması təminatlarına riayət etmələri ilə bağlı faktları və digər məlumatları obyektiv şəkildə toplamağa yönəltməkdən ibarət olub. Məsələn, Layihə qrupu toplanmış məlumatlarla, o cümlədən məhkəmədə təqdim edilmiş sübutların işə aidiyyəti, işin mahiyyəti, yaxud hakimlər tərəfindən təqsirləndirilən şəxsin təqsirinin və ya təqsirsizliyinin müəyyən edilməsi ilə bağlı hər hansı təhlil aparmayıb.

*Məhkəmə işlərinin və məhkəmə proseslərinin seçilməsi*. Ümumiyyətlə, Layihə qrupu müşahidə ediləcək məhkəmə işlərini təsadüfi seçim əsasında müəyyən edib. Həftədə bir dəfə müşahidəçilər məhkəmə iclaslarının siyahısını toplayıblar və icraçı tərəfdaşın koordinatorlarına təqdim ediblər. Koordinatorlar monitorinqi aparılacaq məhkəmə işlərini orada yer alan ittihamlar əsasında elə seçiblər ki, cinayət əməllərinin müxtəlifliyi təmin edilsin. Müşahidəçilər işləri hazırlıq iclası mərhələsindən hakimin yekun qərarı elan etməsinədək müşahidə ediblər.

Müşahidəçilər həmçinin Ofis tərəfindən seçilmiş və jurnalistlərin, hüquq müdafiəçilərinin, siyasi partiyaların və digər vətəndaş cəmiyyəti təşkilatlarının liderlərinin və üzvlərinin ayrı-ayrı məhkəmə

proseslərini, habelə insan hüquqlarına dair fərdi şikayətlər vasitəsilə Ofisin diqqətinə çatdırılmış işləri müşahidə ediblər. Bu işlər həmçinin ifadə və məlumat azadlığı, birləşmək və dinc toplaşmaq azadlığı ilə bağlı Ofisin tədqiq etdiyi digər ATƏT öhdəliklərinə aiddir.

*Müşahidəçilərin hesabatının təhlili üçün baza*. Daha sonra Ofis Layihə qrupunun topladığı faktları və məlumatları daxili qanunvericilik, ATƏT prinsipləri və öhdəliklərində nəzərdə tutulmuş ədalətli məhkəmə araşdırması standartları, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası (AİHK) və Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) presedent hüququna riayət edilməsi baxımından təhlil edib. Bundan əlavə, Ofis məhkəmə işlərinin detallarını ATƏT öhdəlikləri və müvafiq beynəlxalq standartlara, məsələn, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın (MSHBP), habelə İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaya qarşı BMT Konvensiyasının (BMT İQK) müddəalarına riayət edilməsi baxımından da təhlil edib.

*Monitorinq olunmuş işlərin və məhkəmə iclaslarının əhatə dairəsi*. Ədliyyə Nazirliyinin təqdim etdiyi statistik məlumata əsasən, cinayət işləri üzrə çıxarılan məhkəmə qərarlarının sayı aşağıdakı kimi olmuşdur:

**1-ci cədvəl. 2010-cu ildə cinayət işləri üzrə çıxarılan hökmlərin növləri**



Ümumilikdə Layihə qrupu Azərbaycanda 330 cinayət işi və 31 mülki işin monitorinqini aparıb və 1243 məhkəmə iclasını müşahidə edib. Coğrafi baxımdan, onlar Bakıda 210 cinayət işi və 20 mülki işin monitorinqini aparıb və 968 məhkəmə iclasını müşahidə ediblər, paytaxt şəhəri Bakıdan kənardakı regionlarda isə onlar 98 cinayət işi və 11 mülki işin monitorinqini apararaq 275 məhkəmə iclasını müşahidə ediblər.

*İbtidai araşdırmalar barədə məhdud çərçivəli əlavə məlumatlar*. Qeyd etmək lazımdır ki, 2010-cu il Proqramının əhatə dairəsi yalnız məhkəmə araşdırması mərhələsi ilə məhdudlaşır. Bununla belə, ədalətli məhkəmə araşdırması hüququ təkcə məhkəmə iclasları ilə məhdudlaşmır; əksinə, bu hüquq bütövlükdə cinayətin istintaqı və məhkəmə prosesi müddətində şübhəli və ya təqsirləndirilən şəxslərin hüquqlarının müdafiəsini nəzərdə tutur ki, buraya da məhkəməyəqədər mərhələ, məhkəmə araşdırması mərhələsi və apellyasiya mərhələsi daxildir. Buna görə də bu hesabatda bəzi hallarda ibtidai araşdırma mərhələsinə də bəzi istinadlar edilib, həmin istinadlar məhkəmə proseslərinin monitorinqinin məlumatlarına, məhkəmə işlərinin müşahidəsində birbaşa iştirak etməklə bilavasitə Ofisin nümayəndələri tərəfindən toplanmış məlumatlara və Hüquq Resurs Mərkəzlərinə ünvanlanan müraciətlər əsasında əhaliyə insan hüquqları ilə bağlı məsləhətlər verməsi zamanı əldə edilmiş məlumatlara əsaslanır.

**2-ci cədvəl. Bakıda Monitorinq Edilmiş Məhkəmə İşlərinin Sayı**



## 3-cü cədvəl. Bakıda Monitorinq Edilmiş Məhkəmə İclaslarının Sayı




## Bakıda monitorinq edilmiş məhkəmə işlərinin və məhkəmə iclaslarının sayı*

| MƏHKƏMƏLƏR | MƏHKƏMƏ İŞLƏRİ | | | MƏHKƏMƏ PROSESLƏRİ | | |
|---|---|---|---|---|---|---|
| | cinayət | mülki | cəmi | cinayət | mülki | cəmi |
| Ali Məhkəmə | 0 | 3 | 3 | 0 | 3 | 3 |
| Bakı Apellyasiya Məhkəməsi | 5 | 3 | 8 | 15 | 4 | 19 |
| Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə | 56 | 0 | 56 | 314 | 0 | 314 |
| Binəqədi Rayon Məhkəməsi | 17 | 1 | 18 | 107 | 4 | 111 |
| Qaradağ Rayon Məhkəməsi | 1 | 0 | 1 | 9 | 0 | 9 |
| Xətai Rayon Məhkəməsi | 28 | 0 | 28 | 116 | 0 | 116 |
| Nərimanov Rayon Məhkəməsi | 20 | 1 | 21 | 74 | 2 | 76 |
| Nəsimi Rayon Məhkəməsi | 19 | 4 | 23 | 86 | 6 | 92 |
| Nizami Rayon Məhkəməsi | 18 | 1 | 19 | 79 | 2 | 81 |
| Səbail Rayon Məhkəməsi | 6 | 3 | 9 | 18 | 4 | 22 |
| Sabunçu Rayon Məhkəməsi | 16 | 0 | 16 | 55 | 0 | 55 |
| Suraxanı Rayon Məhkəməsi | 7 | 0 | 7 | 30 | 0 | 30 |
| Yasamal Rayon Məhkəməsi | 8 | 4 | 12 | 25 | 15 | 40 |
| **CƏMİ:** | **201** | **20** | **221** | **928** | **40** | **968** |

## 4-cü cədvəl. Regionlarda Monitorinq Edilmiş Məhkəmə İşlərinin Sayı




## 5-ci cədvəl. Regionlarda Monitorinq Edilmiş Məhkəmə İclaslarının Sayı



**Regionlarda monitorinq edilmiş məhkəmə işlərinin və məhkəmə iclaslarının sayı***

| MƏHKƏMƏLƏR | MƏHKƏMƏ İŞLƏRİ | | | MƏHKƏMƏ PROSESLƏRİ | | |
|---|---|---|---|---|---|---|
| | cinayət | mülki | cəmi | cinayət | mülki | cəmi |
| Gəncə Apellyasiya Məhkəməsi | 11 | 0 | 11 | 28 | 0 | 28 |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 9 | 0 | 9 | 23 | 0 | 23 |
| Gəncə-Kəpəz Rayon Məhkəməsi | 9 | 0 | 9 | 28 | 0 | 28 |
| Gəncə-Nizami Rayon Məhkəməsi | 15 | 0 | 15 | 61 | 0 | 61 |
| Sumqayıt Şəhər Məhkəməsi | 11 | 0 | 11 | 27 | 0 | 27 |
| Abşeron Rayon Məhkəməsi | 27 | 0 | 27 | 79 | 0 | 79 |
| Beyləqan Rayon Məhkəməsi | 0 | 1 | 1 | 0 | 1 | 1 |
| Qəbələ Rayon Məhkəməsi | 1 | 1 | 2 | 1 | 1 | 2 |
| Qobustan Rayon Məhkəməsi | 2 | 0 | 2 | 2 | 0 | 2 |
| Quba Rayon Məhkəməsi | 0 | 1 | 1 | 0 | 1 | 1 |
| Qusar Rayon Məhkəməsi | 0 | 1 | 1 | 0 | 1 | 1 |
| Cəlilabad Rayon Məhkəməsi | 1 | 3 | 4 | 1 | 3 | 4 |
| Xaçmaz Rayon Məhkəməsi | 1 | 1 | 2 | 1 | 1 | 2 |
| Lənkəran Rayon Məhkəməsi | 1 | 0 | 1 | 1 | 0 | 1 |
| Masallı Rayon Məhkəməsi | 2 | 1 | 3 | 2 | 1 | 3 |
| Salyan Rayon Məhkəməsi | 2 | 2 | 4 | 2 | 2 | 4 |
| Şamaxı Rayon Məhkəməsi | 4 | 0 | 4 | 4 | 0 | 4 |
| Şuşa Rayon Məhkəməsi | 2 | 0 | 2 | 4 | 0 | 4 |
| **CƏMİ:** | **98** | **11** | **109** | **264** | **11** | **275** |

* Məhkəmə iclaslarının sayı cinayət və mülki işlərin sayı ilə üst-üstə düşmür, çünki məhkəmə işləri üzrə icraat adətən çoxlu sayda məhkəmə iclaslarından ibarət olur. Müşahidə edilmiş cinayət işlərinin növlərinə xüsusilə ağır cinayətlərdən tutmuş böyük ictimai təhlükə törətməyən cinayətlərə qədər müxtəlif cinayət kateqoriyaları daxildir.

**Monitorinq edilmiş cinayət əməllərinin kateqoriyaları və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri**

| Cinayətlərin Növləri | Cinayət Məcəlləsinin Maddələri |
|---|---|
| Həyat və Sağlamlıq əleyhinə olan Cinayətlər | Maddə 120. Qəsdən adam öldürmə<br>Maddə 126. Qəsdən sağlamlığa ağır zərər vurma<br>Maddə 127. Qəsdən sağlamlığa az ağır zərər vurma<br>Maddə 128. Qəsdən sağlamlığa yüngül zərər vurma<br>Maddə 132. Döymə<br>Maddə 133. İşgəncə vermə<br>Maddə 134. Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə |
| Şəxsiyyətin Azadlığı və Ləyaqəti əleyhinə olan | Maddə 144. Adam oğurluğu<br>Maddə 144-1. İnsan alveri<br>Maddə 144-2. Məcburi əmək |

| | |
|---|---|
| Cinayətlər | Maddə 146. Qanunsuz olaraq psixiatriya xəstəxanasına yerləşdirmək<br>Maddə 147. Böhtan<br>Maddə 148. Təhqir |
| Mülkiyyət əleyhinə olan Cinayətlər | Maddə 177. Oğurluq<br>Maddə 178. Dələduzluq<br>Maddə 179. Mənimsəmə və ya israf etmə<br>Maddə 180. Soyğunçuluq<br>Maddə 181. Quldurluq<br>Maddə 182. Hədə-qorxu ilə tələb etmə<br>Maddə 185. Talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirmə<br>Maddə 186. Əmlakı qəsdən məhv etmə və ya zədələmə |
| İqtisadi Fəaliyyət sahəsində olan Cinayətlər | Maddə 206. Qaçaqmalçılıq<br>Maddə 213. Vergi ödəməkdən yayınma |
| İctimai Təhlükəsizlik əleyhinə olan Cinayətlər | Maddə 214. Terrorçuluq<br>Maddə 221. Xuliqanlıq<br>Maddə 228. Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə |
| Narkotik Vasitələrin və Psixotrop Maddələrin Qanunsuz Dövriyyəsi ilə əlaqədar Cinayətlər | Maddə 234. Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma |
| İctimai Mənəviyyat əleyhinə Cinayətlər | Maddə 243. Fahişəliyə cəlb etmə<br>Maddə 244. Əxlaqsızlıq yuvaları saxlama |
| Hərəkət Təhlükəsizliyi və Nəqliyyat Vasitələrinin İstismarı Qaydaları əleyhinə olan Cinayətlər | Maddə 263. Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma<br>Maddə 264. Yol nəqliyyat hadisəsi yerindən qaçma |
| Korrupsiya Cinayətləri və Dövlət Hakimiyyəti, Dövlət Qulluğu Mənafeyi, Yerli Özünüidarə Orqanlarında, habelə Kommersiya və ya Qeyri-kommersiya Təşkilatlarında Qulluq Mənafeyi əleyhinə olan Cinayətlər | Maddə 308. Vəzifə səlahiyyətlərindən sui-istifadə<br>Maddə 312. Rüşvət vermə (aktiv rüşvətxorluq)<br>Maddə 313. Vəzifə saxtakarlığı<br>Maddə 314. Səhlənkarlıq |
| İdarəetmə Qaydası əleyhinə olan Cinayətlər | Maddə 315. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə<br>Maddə 317. Cəzaçəkmə müəssisələrinin və ya istintaq təcridxanalarının normal fəaliyyətinin pozma<br>Maddə 318. Azərbaycan Respublikasının dövlət sərhədinin qanunsuz olaraq keçmə<br>Maddə 320. Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qaunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə<br>Maddə 321. Hərbi xidmət keçməkdən boyun qaçırma |

**6-cı cədvəl. Monitorinq Edilmiş Cinayət İşlərinin Cinayət Kateqoriyaları üzrə Faiz Göstəricisi**




# III. Nəticələr və tendensiyaların təhlili

***Ədalətli məhkəmə araşdırması standartlarına və təqsirləndirilən şəxsin hüquqlarına ümumən riayət edilməsi***

*Qısa icmal: səmərəli hüquqi təmsilçilik, tərəflərin bərabərliyi və bütövlükdə ictimaiyyətin ədalət mühakiməsinə inamı.* Azərbaycan özünün ədliyyə sistemini ATƏT prinsiplərinə və öhdəliklərinə və müvafiq beynəlxalq standartlara uyğun olaraq inkişaf etdirməkdə davam edir. 2010-cu il Proqramının nəticələri göstərir ki, ədliyyə sistemi bu sahədə müəyyən tərəqqiyə nail olsa da, ədalətli məhkəmə araşdırması standartlarına riayət edilməsi ilə bağlı bəzi mühüm məsələləri həll etmək gərəkdir.

Ofisin 2010-cu il monitorinq proqramının nəticələri təqsirləndirilən şəxsin açıq məhkəmə araşdırması hüququna ümumən riayət edildiyini göstərsə də, hesabatın əvvəlki məhkəmə monitorinqi hesabatları ilə[15] tamlıq və davamlılıq təşkil etməsi üçün hesabata həmin məsələ barədə bölmə əlavə olunub.

Məhkəmə iclaslarının başlanmasının gecikdirilməsi narahatlıq doğuran məsələ olaraq qalır və təqsirləndirilən şəxsin işinə ağlabatan müddətdə baxılması hüququ ilə əlaqədar olan ədalətli məhkəmə

[15] 2006-2007 və 2009-cu illər.

araşdırmasının fundamental təminatına birbaşa təsir göstərir.[16] Buna görə də, hesabat dövründə müşahidə edilmiş gecikdirmələrin əsas səbəblərinin qeyd olunduğu xüsusi bölmə də hesabatda öz əksini tapıb. İşə ağlabatan müddətdə baxılması və ya məhkəmə araşdırmasına qədər azad edilmə hüququ ilə əlaqədar olaraq hesabatda həmçinin Azərbaycan məhkəmələrində qətimkan tədbiri qismində məhkəməyəqədər həbs tədbirindən həddən artıq istifadə məsələsinə toxunulur.

Bundan əlavə, hesabatda əsasən hakimlərin ədalətli məhkəmə araşdırmasının əsas standartlarında yer alan təminatlara əməl olunmasını təmin etməklə ədalət mühakiməsini düzgün və ədalətli şəkildə həyata keçirmək vəzifəsi, o cümlədən ədalətli məhkəmə araşdırmasının əsas təminatı kimi təqsirləndirilən şəxslərin məhkəmədə aktiv iştirakını və ixtisaslı vəkildən hüquqi yardım almasını təmin etməklə tərəflərin bərabərliyi prinsipinə riayət etmək vəzifəsi önə çəkilir.

Məsələn, Bakıda və regionlarda müdafiəçi vəkillərin məhkəmə prosesində iştirakı məsələsi vəkillərin sayı baxımından bir qədər yaxşılaşsa da, onların verdiyi məsləhətlərin aşağı keyfiyyəti təqsirləndirilən şəxsin səmərəli hüquqi müdafiə ilə təmin olunma hüququna xələl gətirməkdə davam edir. Müvafiq olaraq, səmərəsiz hüquqi təmsilçilik bütövlükdə əhalinin konkret tələblə bağlı səmərəli hüquqi müdafiə vasitəsini təmin etməyə qadir olan hüquqi təmsilçiliyə etimadını itirməsinə və son nəticədə məhkəmə prosesində tərəflərin bərabərliyi prinsipinin pozulmasına gətirib çıxarır. Tərəflərin bərabərliyi prinsipinə real olaraq əməl edilməməsi və bunun əhali tərəfindən dərk edilməsi bütövlükdə ictimaiyyətin ədalət mühakiməsinin səmərəliliyinə etimadının itirilməsinə səbəb olur.

Hesabat dövründə hakimlərin sayında, onların bacarıqlarında və peşəkarlıqlarında irəliləyişlərə nail olunub. Bununla belə, hakimlərin daxili qanunvericilikdə nəzərdə tutulmuş prosessual tələblərlə və müvafiq beynəlxalq standartlara riayət etməməsi xüsusən jurnalistlərin, hüquq müdafiəçilərinin, siyasi partiya və vətəndaş cəmiyyəti təşkilatlarının liderlərinin və üzvlərinin işləri üzrə onların qərarlarında daha ardıcıl və açıq şəkildə təzahür edir.

Hakimlər məhkəmə prosesinin ədalətliliyinin əsas təminatçısıdırlar və məhkəmə prosesində təqsirləndirilən şəxsin hüquqlarına tam təmin olunmasına görə cavabdehdirlər. Belə ki, onlar məhkəməyəqədər mərhələdə ədalətli məhkəmə araşdırmasının əsas təminatları ilə, o cümlədən vəkillə səmərəli şəkildə təmin olunmaq hüququ ilə bağlı hər hansı pozuntunun baş verib-vermədiyini məhkəmə prosesinin əvvəlində hazırlıq iclası zamanı araşdırmalıdırlar.

Yuxarıda qeyd edilənlərlə, xüsusən də tərəflərin bərabərliyi prinsipi ilə əlaqədar olaraq hakimlər məhkəmə tərəfindən yekun ittiham hökmü çıxarılana qədər təqsirləndirilən şəxslər üçün mühüm

[16] "Ədalət mühakiməsinin gecikdirilməsi ədalət mühakiməsindən imtina deməkdir".

təminatları nəzərdə tutan təqsirsizlik prezumpsiyasını da təmin etməlidirlər. Ofis təqsirləndirilən şəxsin məhkumluğundan, araşdırılan cinayət əməllərinin ciddiliyindən asılı olmayaraq metal barmaqlıqlardan sistematik istifadə edilməsindən narahatlıq keçirməkdə davam edir və buna görə də bu məsələyə aid bölməni hesabata daxil edib.

Hakimlər prosesdəki bu və ya digər tərəfin lehinə və ya əleyhinə hərəkət etməkdən çəkinməsi onlar üçün faydalı olar və ədalət mühakiməsinin səmərəliliyinə ictimai inamı artırardı. Bu cür davranış hakimlərin müstəqilliyinə və qərəzsizliyinə xələl gətirir və onların vicdanlılığını sual altına alır.

Təqsirləndirilən şəxslərin hüquqları barədə məlumatlandırılmasının təmin edilməsinə görə hakimlərin cavabdehliyinə gəldikdə, Layihə qrupu qeyd edib ki, hesabat dövründə müşahidəsi aparılmış bütün işlərin 150-dən çoxunda təqsirləndirilən şəxslər hüquqları barədə məlumatsız olublar. Bundan əlavə, Layihə qrupu elə hallar barədə məlumat verib ki, bu zaman hakim (hakimlər) hazırlıq iclasında təqsirləndirilən şəxslərə hüquqları barədə məlumat verməyib. Sədrlik edən hakimlər 200-dən artıq işdə tərəflərə bu barədə sual vermədən açıq-aşkar elə qənaətə gəlib ki, məhkəməyəqədər istintaq zamanı hər hansı nöqsan baş verməyib.

Pis rəftarın baş verməsi barədə məlumatların, xüsusən də onların həbsin ilkin mərhələlərində polis bölmələrində baş verməsinin Azərbaycanda problem olaraq qaldığını nəzərə alaraq, hesabatda pis rəftarla bağlı hallar da əks olunub. Hesabat dövründə Layihə qrupunun müşahidə etdiyi bir sıra işlərdə həbs müddətində pis rəftarın baş verdiyi barədə məlumatlar əlavə araşdırma aparılması üçün məhkəmənin diqqətinə çatdırılıb. Lakin hakimlər həmin məlumatları araşdırılmaq üçün istintaqa göndərməyiblər, halbuki daxili qanunvericilik bunu tələb edir.

Nəhayət, hesabatda məhkəmə qərarlarının əsaslandırılması barədə bölmə də vardır, o, həmçinin prosesin düzgün aparılmasına və ölkədaxili apellyasiya və kassasiya məhkəmələrində tərəflərin məhkəmə qərarlarına etiraz etmək imkanına malik olmasına, habelə sonda işlərin AİHM-ə təqdim edilməsinə aiddir.

**7-ci cədvəl. 2010-cu ildə Monitorinq Edilmiş Ədalətli Məhkəmə Araşdırması Hüququnun Pozuntularının Faiz Göstəricisi**




**8-ci cədvəl. 2009 və 2010-cu illərdə Monitorinq Edilmiş Ədalətli Məhkəmə Araşdırması Hüququnun Pozuntularının Müqayisəli Diaqramı**



### *1. Açıq məhkəmə araşdırması hüququ*

*Açıq məhkəmə iclasları ədalətli məhkəmə araşdırmalarının əsas təminatıdır.* AİHK üzrə öhdəliklərdə və ATƏT öhdəliklərində nəzərdə tutulur ki, müəyyən edilmiş məhdud sayda hallar istisna olmaqla, ictimaiyyət bütün məhkəmə iclaslarında iştiraka buraxılmalıdır.[17] Bundan başqa, Azərbaycanın Cinayət Prosessual Məcəlləsinin (CPM) 27-ci maddəsinə əsasən, dövlət, peşə və kommersiya sirlərinin, habelə vətəndaşların şəxsi və ailə sirlərinin qorunması halları istisna olmaqla, Azərbaycan Respublikasında cinayət işləri üzrə bütün məhkəmə iclasları açıq keçirilir.

*Bir neçə istisnalarla açıq məhkəmə araşdırması hüququna ümumən riayət edilir.* 2010-cu il Proqramının icrası müddətində toplanmış məlumatlara əsasən, bu hüquqa ümumən lazımi qaydada riayət edilir. Lakin çox vaxt məhkəmə zallarının sahəsinin kiçik olması nəticəsində açıq məhkəmə araşdırması hüququna xələl gətirilir. Bundan əlavə, müstəsna qaydada 30-dan artıq məhkəmə iclası məhkəmə zalları xaricində, hakimlərin otaqları da daxil olmaqla, ictimaiyyətin asanlıqla gələ bilməyəcəyi yerlərə keçirilib. Layihə qrupu bunun bir qayda halını almadığını və yalnız ayrı-ayrı hallarda baş verdiyini etiraf etsə də, bəzi hallarda məhkəmə müşahidəçilərinin belə məhkəmə iclaslarını müşahidə etmələrinə icazə verilməyib və onlar ondan çox işdə hakimlərin heç bir izahat vermədən ictimaiyyət nümayəndələrinin həmin məhkəmə iclaslarında iştirakına icazə vermədikləri barədə məlumatlar veriblər. Layihə qrupunun baş çəkdiyi məhkəmələrin əksəriyyətində məhkəmə iclaslarının vaxtı və yeri barədə məlumatlar lazımi qaydada elanlar lövhəsində göstərilib. Bununla belə, Layihə qrupunun baş çəkdiyi elə məhkəmələr də olub ki, orada məlumatlar tam dəqiq olmayıb və (və ya) ümumiyyətlə elanlar lövhəsinə heç bir məlumat vurulmayıb. Bu, dolayısı ilə məhkəmə iclaslarının şəffaflığına xələl gətirir.[18]

*Müsbət və mənfi tendensiyaların qısa icmalı.* Layihə qrupu ictimaiyyətin məhkəmə iclaslarına buraxılmasında əhəmiyyətli dərəcədə yaxşılaşma olduğunu qeyd edib. Ümumiyyətlə, Layihə qrupu məhkəmə və ya məhkəmə məmurları tərəfindən tətbiq edilən və açıq məhkəmə araşdırması hüququna müdaxilə təşkil edən hər hansı məhdudiyyətlər müşahidə etməyib. Bununla belə, bir çox məhkəmələrdə məhkəmə zalları iclasları müşahidə etmək istəyənlərin yetərincə yerləşdirilməsi üçün çox kiçikdir.

---

[17] AİHK-in 6-cı maddəsinin 1-ci bəndi və Kopenhagen Sənədinin (1990-cı il) 5.16-cı bəndi.

[18] Bəzi məhkəmələrdə baxılmalı işlərin siyahısında ümumiyyətlə məhkəmə iclaslarının vaxtı göstərilməyib. Məhkəmə araşdırmalarının monitorinqini aparanlar həmin məlumatı məhkəmə katibliyindən almalı olublar.

## *2. Məhkəmə iclaslarının başlanmasının gecikdirilməsi*

*Məhkəmə iclaslarının gecikdirilməsi məhkəmələrdəki idarəetmə məsələsi kimi*. AİHK tutulmuş və ya həbsə alınmış hər kəsin dərhal hakimin və ya qanunla məhkəmə hakimiyyətini həyata keçirmək səlahiyyəti verilmiş vəzifəli şəxsin yanına gətirilmək hüququnu və işinə *ağlabatan müddətdə* baxılması hüququnu nəzərdə tutur. Məhkəmə iclaslarının çox zaman tərəflərdən birinin iclasa gəlməməsi səbəbindən təxirə salınması barədə məlumat verməklə yanaşı, Layihə qrupu həm də məhkəmə iclaslarının başlanmasında müşahidə edilən gecikmələrin məhkəmələrin səmərəli idarəçiliyi ilə və məhkəmə proseslərinin təşkili ilə bağlı geniş yayılmış problemlərdən biri olduğu barədə məlumat verib.[19] Belə ki, məhkəmə iclasının başlanmasında gecikmələr hələ də baş verməkdədir. Bu gecikmələrin və məhkəmə iclaslarının vaxtının dəyişdirilməsinin səbəbləri işdən-işə fərqlidir və bəzi hallarda məhkəmə həmin səbəbləri aydın şəkildə bildirmir. Bundan başqa, hakimlərin iş yükünün çoxluğu da yubanmalara şərait yarada bilər.

*İclasların başlanmasının ləngiməsinin sıx qrafikli məhkəmə zallarında gecikdirmələri daha da artırması*. Bundan əlavə, çox vaxt ayrı-ayrı hakimlər məhkəmə zallarından eyni gündə istifadə etdiklərinə görə, böyük ehtimalla hər dəfə bir iclasın gecikdirilməsi eyni məhkəmə zalında keçiriləcək sonrakı məhkəmə iclaslarının da gecikməsinə səbəb ola bilər. Müvafiq olaraq, bir iş üzrə məhkəmə prosesinin başlanmasının gecikdirilməsi sonrakı işlərin vaxtında başlanmasına və lazımi qaydada araşdırılmasına təsir göstərə bilər. Məsələn, məhkəmə iclaslarının təxirə salınması hakimləri istər-istəməz işlərə baxılması ilə bağlı daxili qanunvericilikdə nəzərdə tutulmuş müddətlərə əməl etməməyə vadar edə bilər. Nəhayət, məhkəmə iclaslarının təyin olunmuş vaxtına və gününə riayət edilməməsi kimi geniş yayılmış hallar ictimaiyyətin narazılığına səbəb olur və ədliyyə sisteminin özünün təşkil etdiyi qrafik əsasında səmərəli şəkildə və vaxtında fəaliyyət göstərmək imkanına mənfi təsir göstərir.[20]

---

[19] Nizami rayon məhkəməsində müşahidəsi aparılan, vaxtı təyin olunmuş on bir məhkəmə iclasından üç ay müddətində yalnız ikisi keçirilib. Birinci məhkəmə iclası təqsirləndirilən şəxsin ittiham aktını almaması səbəbindən təxirə salınıb. Sonrakı iki iclas təqsirləndirilən şəxsin məhkəməyə gətirilməməsi səbəbindən təxirə salınıb. Digər bir iclas ittihamçının xəstə olması səbəbindən təxirə salınıb. Məhkəmə iclasları daha beş dəfə ona görə təxirə salınıb ki, mülki iddiaçının nümayəndəsi və ya şahidlərdən biri məhkəmə iclasına gəlməyib. Bundan başqa, iclaslardan biri vəkilin gecikməsi səbəbindən təyin olunmuş vaxtdan saat yarım gec başlayıb. Bu ləngimələr və təxirə salınmalar ciddi xəstəliyi olan təqsirləndirilən şəxslər üçün əhəmiyyətli narahatlıqlar yaradır. Digər bir məhkəmə işində Layihə Qrupu məlumat verib ki, iki iclasın hər biri 1 saat 45 dəqiqə ləngiyib. Məlumatlara görə hər iki ləngimənin səbəbi digər məhkəmə işi ilə məşğul olması ilə əlaqədar olaraq ittihamçının iclasda olmaması idi.

[20] Layihə Qrupu məlumat verib ki, konkret iş üzrə təxirə salınmış iclasların sayı faktiki olaraq keçirilmiş iclasların sayından çox olub. Məsələn, Layihə Qrupu tərəfindən müşahidəsi aparılmış məhkəmə araşdırmalarından birində müşahidəçi üç ardıcıl məhkəmə iclasında iştirak edib və onların hər üçü müxtəlif səbəblərə görə təxirə salınıb. Birinci iclas hakimlərdən birinin olmaması səbəbindən təxirə salınıb. İkinci iclas tərəflərin iclasa gəlməməsi səbəbindən təxirə salınıb. Müşahidəsi aparılmış sonuncu iclas hakimlərdən birinin gəlməməsi səbəbindən təxirə salınıb. Məhkəmə işə baxılmasının təxirə salındığı barədə tərəflərə qabaqcadan məlumat verməyib və iclasın vaxtının yenidən təyin olunması üçün heç bir cəhd göstərməyib, nəticədə iclas başlayandan dərhal sonra təxirə salınıb.

**9-cu cədvəl. Məhkəmə Proseslərinin Başlanmasının Gecikdirilməsi**




| | |
|---|---|
| Məhkəmə prosesləri vaxtında başlayıb | 429 |
| Məhkəmə prosesləri vaxtından gec başlayıb | 539 |
| Məhkəmə proseslərinin ümumi sayı | 968 |

*Müsbət və mənfi tendensiyaların qısa icmalı.* Layihə qrupunun verdiyi məlumatlara, eləcə də məhkəmə araşdırmalarının monitorinqində birbaşa iştirak etmiş Ofis əməkdaşlarının topladığı məlumatlara əsasən, monitorinqi aparılmış işlərin ümumi sayının yarıdan çoxu təyin olunmuş vaxtda başlamayıb və ümumiyyətlə iclasların başlanmasında əhəmiyyətli gecikmələr baş verib.

***3. Məhkəmə araşdırmasına qədər müvəqqəti azad edilmə hüququ***

*Hüququn əsasları.* AİHK-da nəzərdə tutulur ki, hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ var.[21] Bundan başqa, 5-ci maddənin 3-cü bəndinə əsasən, tutulmuş və ya həbsə alınmış hər kəs, dərhal hakimin və ya qanunla məhkəmə hakimiyyətini həyata keçirmək səlahiyyəti verilmiş vəzifəli şəxsin yanına gətirilir və ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya məhkəməyə qədər azad edilmək hüququna malikdir. Azad edilmək təqsirləndirilən şəxsin məhkəmədə iştirak etməsinin müəyyən təminatlarının təqdim edilməsi ilə şərtləndirilə bilər.

Təqsirsizlik prezumpsiyası və şəxsi azadlıq hüququ kimi prosessual təminatlara riayət edilməsinə şərait yaradılmasının vacibliyini nəzərə alaraq, Avropa Şurasının Nazirlər Komitəsi həbs qətimkan

[21] AİHK-ın 5-ci maddəsinin 1-ci bəndi.

tədbirindən istifadəni məhdudlaşdırmağı tövsiyə edir və mümkün olan hallarda alternativ tədbirlərdən istifadə edilməsini həvəsləndirir.[22]

*Qətimkan tədbirlərinin seçilməsi üçün meyarlar.* Azərbaycanın daxili qanunvericiliyinə əsasən, ev dustaqlığı və girov müqabilində azad edilmə həbs qətimkan tədbirinə alternativ olan qətimkan tədbirlərdir.[23] Təqsirləndirilən şəxsin ədalət mühakiməsindən yayınması təhlükəsi yalnız onu gözləyən cəzanın ağırlığı əsasında qiymətləndirilə bilməz. Həbs qətimkan tədbirinə alternativ olan tədbirləri tətbiq edib-etməmək barədə qərar vermək üçün hakimlər ədalət mühakiməsindən yayınma ilə bağlı real təhlükəni qiymətləndirməli və bu cür təhlükənin mövcud olduğunu, yaxud da həmin təhlükənin məhkəmə prosesinin başlanmasına qədər təqsirləndirilən şəxsin həbsdə saxlanmasına haqq qazandırmayacaq dərəcədə kiçik olduğunu təsdiq edən bir sıra digər müvafiq amilləri də nəzərə almalıdırlar.[24] Ofis həmçinin lazımi qaydada əsaslandırılmayan səbəblərə görə insanların həbsdə saxlanmasının sosial və maliyyə cəhətdən mənfi təsirlərini də vurğulamaq istərdi, belə ki, bu, bəzi hallarda təcridxanaların həddən artıq dolmasına və tutulmuş şəxslərin hüquqlarının digər pozuntularına gətirib çıxarır.

2009-cu ilin noyabrında çıxarılmış dönüş xarakterli qərarında[25] Ali Məhkəmə aşağı instansiya məhkəmələrindən tələb etdi ki, məhkəmə prosesi başlayana qədər qətimkan tədbiri qismində məhkəməyəqədər həbsdən istifadə edilməsini məhdudlaşdırsınlar. Həmin qərara əsasən, müəyyən hallarda, o cümlədən təqsirləndirilən şəxs zərər çəkmiş şəxslərə, şahidlərə və ya bütövlükdə ictimaiyyətə qarşı təhlükə yaratmadıqda və onun aparılan araşdırmalara müdaxilə etməsi riski olmadıqda, hakimlər CPM-in müddəalarına uyğun olaraq digər qətimkan tədbirlərinin tətbiqini nəzərdən keçirməlidirlər. Hakimlər əmin olmalıdırlar ki, təqsirləndirilən şəxs məhkəmə araşdırmasına gələcək və məhkəməyə qədər azad ediləcəyi təqdirdə hər hansı zərər çəkmiş şəxsə, şahidə və ya digər şəxsə təhlükə yaratmayacaq. Bu məqsədlə onlar təqsirləndirilən şəxsin azad edilməsinə məqsədəuyğun saydıqları şərtləri, o cümlədən girov qoyma şərtini tətbiq edə bilərlər və bu cür şərtlərə riayət edilməsi təqsirləndirilən şəxsin məhkəmə araşdırmasında iştirakını və digər şəxslərin müdafiəsini təmin etmək üçün zəruridir.

---

[22] Həbs qətimkan tədbirindən istifadə edilməsi, onun hansı hallarda tətbiq edilməsi və ondan sui-istifadə edilməsinə qarşı təminatlar barədə Nazirlər Komitəsinin üzv dövlətlərə *Rec(2006)13* saylı tövsiyəsi. Həmçinin bax: *Kajçinets Polşaya qarşı* məhkəmə işi üzrə qərar (22 may 2007-ci il), ərizə №59526/00, 57-ci bənd.

[23] CPM-in 154.4 və 156.2-ci maddələri.

[24] *Mənsur Türkiyəyə qarşı* məhkəmə işi üzrə qərar (08 iyun 1995-ci il), ərizə №16026/90, 55-ci bənd.

[25] Qətimkan tədbirinin seçilməsi haqqında 3 noyabr 2009-cu il tarixli qərar. Həmin qərarın 4-cü bəndində aşağıdakılar nəzərdə tutulur: […] "Məhkəmələrə izah edilsin ki, həbs qətimkan tədbirinin seçilməsi haqqında təqdimata baxarkən onlar ilk növbədə Azərbaycan Respublikası CPM-nin 154-cü maddəsində nəzərdə tutulmuş digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyünü yoxlamalı, təqdimat təmin edildikdə isə həbslə əlaqədar olmayan qətimkan tədbirinin seçilməsinin qeyri-mümkün olmasını əsaslandırmalıdırlar".

*Müsbət və mənfi tendensiyaların qısa icmalı*. Hakimlərin həbs qətimkan tədbirini yalnız müstəsna hallarda və əsaslandırılmış şəkildə tətbiq etməli olduqları barədə Azərbaycan Respublikası Ali Məhkəməsinin mühüm tövsiyəsinə baxmayaraq, 2010-cu il Proqramının nəticələri göstərir ki, məhkəmələr ciddi hüquqi əsaslandırma olmadan qətimkan tədbiri qismində məhkəməyəqədər həbsi təqsirləndirilən şəxslərə qarşı geniş şəkildə tətbiq edirlər. Layihə qrupu məlumat verib ki, hakimlər alternativ qətimkan tədbirlərinin tətbiqi üçün müdafiə tərəfinin qaldırdığı vəsatətlərə əhəmiyyət vermir, təqsirləndirilən şəxsin məhkəməyə qədər həbsdə saxlanıb-saxlanmaması məsələsini həll etmək üçün işə aidiyyəti olan bütün amilləri, məsələn, təqsirləndirilən şəxsin məhkumluğunun olmamasını və aparılan araşdırmalara müdaxilə etməsi ehtimalının olmamasını və ya şahidlərə qarşı təhlükə yaratmamasını nəzərə almırlar. Hesabat dövründə Layihə qrupu məlumat verib ki, monitorinqi aparılmış məhkəmə iclaslarının təxminən dördə birində məhkəmələr digər qətimkan tədbirləri, məsələn, başqa yerə getməmək barədə iltizam və ya polisin nəzarətinə vermə tədbirini seçiblər. Ofis qətimkan tədbiri qismində məhkəməyəqədər həbsdən mütəmadi istifadəni əks etdirən analoji mənfi tendensiyaları məhkəmə araşdırmalarının əvvəlki monitorinq proqramlarında da müşahidə edib.

**<u>10-cu cədvəl. Qətimkan Tədbirlərinin Seçilməsi</u>**



| MƏHKƏMƏ | Həbs | Girov | Polis nəzarəti | Başqa yerə getməmək barədə iltizam | Şəxsi zaminlik | Ev dustaqlığı | Qətimkan tədbiri seçilməyib |
|---|---|---|---|---|---|---|---|
| Bakı Apellyasiya Məhkəməsi | 3 | 0 | 0 | 0 | 0 | 0 | 3 |
| Gəncə Apellyasiya Məhkəməsi | 10 | 0 | 1 | 0 | 0 | 0 | 0 |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 3 | 0 | 0 | 4 | 0 | 0 | 4 |
| Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə | 52 | 0 | 2 | 2 | 0 | 0 | 0 |
| Binəqədi Rayon Məhkəməsi | 7 | 0 | 0 | 10 | 0 | 0 | 0 |
| Qaradağ Rayon Məhkəməsi | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Xətai Rayon Məhkəməsi | 17 | 0 | 3 | 9 | 0 | 0 | 0 |
| Nərimanov Rayon Məhkəməsi | 13 | 0 | 0 | 6 | 0 | 0 | 1 |
| Nəsimi Rayon Məhkəməsi | 7 | 0 | 0 | 13 | 0 | 0 | 0 |
| Nizami Rayon Məhkəməsi | 11 | 0 | 1 | 6 | 0 | 0 | 0 |
| Səbail Rayon Məhkəməsi | 2 | 0 | 0 | 3 | 0 | 0 | 0 |
| Sabunçu Rayon Məhkəməsi | 10 | 0 | 0 | 6 | 0 | 0 | 0 |
| Suraxanı Rayon Məhkəməsi | 4 | 0 | 0 | 3 | 0 | 0 | 0 |
| Yasamal Rayon Məhkəməsi | 3 | 0 | 0 | 2 | 0 | 0 | 3 |
| Gəncə-Kəpəz Rayon Məhkəməsi | 3 | 0 | 3 | 2 | 0 | 0 | 0 |
| Gəncə-Nizami Rayon Məhkəməsi | 12 | 0 | 2 | 1 | 0 | 0 | 0 |
| Sumqayıt Şəhər Məhkəməsi | 3 | 0 | 0 | 7 | 0 | 0 | 0 |
| Abşeron Rayon Məhkəməsi | 12 | 0 | 1 | 12 | 0 | 0 | 0 |
| Qəbələ Rayon Məhkəməsi | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Qobustan Rayon Məhkəməsi | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 |
| Cəlilabad Rayon Məhkəməsi | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Xaçmaz Rayon Məhkəməsi | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Lənkəran Rayon Məhkəməsi | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Masallı Rayon Məhkəməsi | 2 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Salyan Rayon Məhkəməsi | 2 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Şamaxı Rayon Məhkəməsi | 1 | 0 | 0 | 3 | 0 | 0 | 0 |
| Şuşa Rayon Məhkəməsi | 0 | 0 | 0 | 2 | 0 | 0 | 0 |
| **CƏMİ:** | **183** | **0** | **13** | **92** | **0** | **0** | **11** |

**11-ci cədvəl. Qətimkan Tədbirlərinin Seçilməsi: Bakı**




| MƏHKƏMƏ | Həbs | Girov | Polis nəzarəti | Başqa yerə getməmək barədə iltizam | Şəxsi zaminlik | Ev dustaqlığı | Qətimkan tədbiri seçilməyib |
|---|---|---|---|---|---|---|---|
| Bakı Apellyasiya Məhkəməsi | 3 | 0 | 0 | 0 | 0 | 0 | 3 |
| Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə | 52 | 0 | 2 | 2 | 0 | 0 | 0 |
| Binəqədi Rayon Məhkəməsi | 7 | 0 | 0 | 10 | 0 | 0 | 0 |
| Qaradağ Rayon Məhkəməsi | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Xətai Rayon Məhkəməsi | 17 | 0 | 3 | 9 | 0 | 0 | 0 |
| Nərimanov Rayon Məhkəməsi | 13 | 0 | 0 | 6 | 0 | 0 | 1 |
| Nəsimi Rayon Məhkəməsi | 7 | 0 | 0 | 13 | 0 | 0 | 0 |
| Nizami Rayon Məhkəməsi | 11 | 0 | 1 | 6 | 0 | 0 | 0 |
| Səbail Rayon Məhkəməsi | 2 | 0 | 0 | 3 | 0 | 0 | 0 |
| Sabunçu Rayon Məhkəməsi | 10 | 0 | 0 | 6 | 0 | 0 | 0 |
| Suraxanı Rayon Məhkəməsi | 4 | 0 | 0 | 3 | 0 | 0 | 0 |
| Yasamal Rayon Məhkəməsi | 3 | 0 | 0 | 2 | 0 | 0 | 3 |
| **CƏMİ:** | **130** | **0** | **6** | **60** | **0** | **0** | **7** |

## 12-ci cədvəl. Qətimkan Tədbirlərinin Seçilməsi: Regionlar




| MƏHKƏMƏ | Həbs | Girov | Polis nəzarəti | Başqa yerə getməmək barədə iltizam | Şəxsi zaminlik | Ev dustaqlığı | Qətimkan tədbiri seçilməyib |
|---|---|---|---|---|---|---|---|
| Gəncə Apellyasiya Məhkəməsi | 10 | 0 | 1 | 0 | 0 | 0 | 0 |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 3 | 0 | 0 | 4 | 0 | 0 | 4 |
| Gəncə-Kəpəz Rayon Məhkəməsi | 3 | 0 | 3 | 2 | 0 | 0 | 0 |
| Gəncə-Nizami Rayon Məhkəməsi | 12 | 0 | 2 | 1 | 0 | 0 | 0 |
| Sumqayıt Şəhər Məhkəməsi | 3 | 0 | 0 | 7 | 0 | 0 | 0 |
| Abşeron Rayon Məhkəməsi | 12 | 0 | 1 | 12 | 0 | 0 | 0 |
| Qəbələ Rayon Məhkəməsi | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Qobustan Rayon Məhkəməsi | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 |
| Cəlilabad Rayon Məhkəməsi | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Xaçmaz Rayon Məhkəməsi | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Lənkəran Rayon Məhkəməsi | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Masallı Rayon Məhkəməsi | 2 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Salyan Rayon Məhkəməsi | 2 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Şamaxı Rayon Məhkəməsi | 1 | 0 | 0 | 3 | 0 | 0 | 0 |
| Şuşa Rayon Məhkəməsi | 0 | 0 | 0 | 2 | 0 | 0 | 0 |
| **CƏMİ:** | **53** | **0** | **7** | **32** | **0** | **0** | **4** |

13-cü cədvəl. Müqayisəli Diaqram – Qətimkan Tədbirlərinin Seçilməsi









## *4. İşin müstəqil və qərəzsiz məhkəmə tərəfindən araşdırılması hüququ*

*Hüququn əsasları*. Müstəqil və qərəzsiz məhkəmə tərəfindən işin ədalətli və açıq araşdırılması hüququ ATƏT öhdəliklərində, MSHBP-də və AİHK-da nəzərdə tutulub. Bu hüquq Azərbaycan Konstitusiyasının 127-ci maddəsində və CPM-in 28-ci maddəsində təsbit olunub. Məhkəmələrin müstəqilliyi və qərəzsizliyi geniş mənada məhkəmə hakimiyyətinin institusional strukturundan irəli gəlir və onun icra və qanunvericilik hakimiyyətlərinin təsirindən və digər təsirlərdən müstəqilliyi hakimiyyətlərin səmərəli bölgüsü vasitəsilə təmin olunur. Lakin 2010-cu il Proqramının əhatə dairəsi məhkəmədə hakimlərin müstəqilliyi və qərəzsizliyi barədə ictimaiyyətə yansıyan görünüşün qiymətləndirilməsi ilə məhdudlaşıb. Beynəlxalq hüquq standartlarına və hakimlər üçün daxili peşə etikası qaydalarına uyğun olaraq, təqsirləndirilən şəxsin təqsiri və məhkəmə araşdırmasının nəticəsi barədə hakimlərin qabaqcadan nəticə çıxardıqlarına dair təəssürat yaranmamalıdır.

*Hakimlərin davranışı onların müstəqilliyinə və qərəzsizliyinə dair əsaslı şübhələr doğura bilər*. Müvafiq olaraq, 2010-cu il Proqramı məhkəmə işlərinə baxarkən hakimlərin davranışının onların müstəqilliyi və qərəzsizliyi ilə bağlı əsaslı şübhələr yaradıb-yaratmadığının araşdırılması ilə əlaqədar idi. Bu kontekstdə Layihə qrupu hakimlərin davranışının onların müstəqilliyi və qərəzsizliyi ilə bağlı əsaslı şübhələr yarada biləcəyinə dair bir neçə hal barədə məlumat verib. Bu hallara aşağıdakılar daxildir: 1) hakimlər qarşı tərəfin iştirakı olmadan yalnız ittihamçılarla açıq ünsiyyətdə olublar, yaxud

məhkəmə iclasındakı fasilədən əvvəl və ya fasilə zamanı yalnız onları hakim otağında qəbul ediblər;[26] 2) hakimlər heç bir izah vermədən prokurorların məhkəmə qərarının çıxarıldığı qapalı müşavirədə onları müşayiət etmələrinə icazə veriblər ; 3) hakimlər müşavirələr üçün xüsusi müşavirə otağı əvəzinə öz otaqlarından istifadə ediblər.[27]

*Hakimlərin davranışı məhkəmənin müstəqilliyinə və qərəzsizliyinə dair suallar doğurur.* Müşahidə edilmiş məhkəmə iclaslarının təxminən onunda hakimlərin məhkəmə prosesindəki hərəkətləri məhkəmənin müstəqilliyini və qərəzsizliyini şübhə altına alıb. Həmin hərəkətlərə bunlar daxildir: 1) prokurorların təqsirləndirilən şəxsə qarşı açıq-aydın düzgün olmayan hərəkətlərinə hakim tərəfindən reaksiya verilməməsi; 2) təqsirləndirilən şəxsi dindirərkən hakimin ittiham mövqeyində durması təəssüratının yaranması; 3) məhkəməyəqədər istintaq mərhələsində təsirləndirilən şəxsin hüquqlarına tam və düzgün riayət edilməsinin hakimlər tərəfindən hazırlıq iclasında araşdırılmaması.[28] Layihə qrupu digər halları da müşahidə edib ki, bu zaman hakim (hakimlər) prokurorun qaldırdığı vəsatətləri təmin edib, amma müdafiəçinin qaldırdığı vəsatətlərin, demək olar ki, hamısını hər hansı ciddi əsas gətirmədən rədd edib, yalnız dövlət ittihamçısının razılaşdığı vəsatətlər istisna təşkil edib. Bundan əlavə, Layihə qrupu məlumat verib ki, kifayət qədər məhkəmə iclasında hakim (hakimlər) məhkəməyəqədər istintaq mərhələsində baş verdiyi iddia edilən pozuntularla bağlı təqsirləndirilən şəxslərin səsləndirdiyi ciddi məlumatlarının araşdırılmasına etinasız yanaşıblar. Hətta bəzi hallarda hakimlər ittiham tərəfinin arqumentlərinin lehinə müdafiəçi ilə mübahisəyə giriblər.[29] Sədrlik edən hakimlər 11 məhkəmə iclasında təqsirləndirilən şəxsləri və şahidləri dindirərkən yönəldici suallardan, o cümlədən təqsirsizlik prezumpsiyası prinsipinin açıq-aydın pozulması təəssüratını yaradan suallardan istifadə ediblər.[30]

*Təqsirləndirilən şəxsin çəkişmə prinsipinə əsaslanan məhkəmə araşdırmasında sübutlara ədalətlə baxılması hüququ.* Hakimlər məhkəmə icraatı zamanı qərəzlilik təəssüratı yaradan hərəkət edirlərsə, xüsusən də bu hərəkət ittiham tərəfinin xeyirinədirsə, bu halda onlar təqsirləndirilən şəxsi irəli sürdüyü sübutlara məhkəmə tərəfindən ədalətli, müstəqil və qərəzsiz şəkildə baxılması imkanından və hüququndan məhrum etmiş olurlar. Bundan əlavə, hakimlərin bu davranışı təqsirləndirilən şəxsi

---

[26] Ədalət mühakiməsinin maraqları naminə hakimlə prosesdəki tərəflərdən biri arasında ünsiyyət ola bilər, bu zaman digər tərəf həmin ünsiyyətə qatılmır.

[27] Layihə Qrupu birinci halı 20 məhkəmə iclasında, ikincini 2 məhkəmə iclasında, üçüncünü isə 30-dan artıq məhkəmə iclasında müşahidə edib.

[28] Birinci hal 15 məhkəmə iclasında, ikinci hal 7 məhkəmə iclasında, üçüncü hal isə 200-dən artıq məhkəmə iclasında müşahidə edilib.

[29] Məsələn, 15-dən artıq məhkəmə iclasında təqsirləndiriləln şəxslər iddia ediblər ki, şahidlər ittihamı dəstəkləyən ifadələrini təzyiq altında veriblər. Şahidlərin bu iddiaları təsdiq etdiyinə baxmayaraq, hakim (hakimlər) buna əhəmiyyət verməyib və işə baxılmasını davam etdirib.

[30]Məsələn, Layihə Qrupu elə işlər barədə məlumat verib ki, həmin işlərdə hakim təqsirkar olmadığını iddia edən təqsirləndirilən şəxsə aşağıdakı tipli suallar verib: “Siz ona görə buradasınız ki, qətl törətmisiniz” və “Siz niyə həmin şəxsi öldürdünüz?”.

məhkəmə çəkişməsi sisteminin kökündə duran əsas hüququndan – ona qarşı irəli sürülmüş dəlillərin qərəzsiz hakim tərəfindən ədalətli şəkildə araşdırılması hüququndan məhrum etmiş olur. AİHM-in presedent hüququnun standartlarına və ATƏT öhdəliklərinə əsasən, bir hüquqşünas (prokuror) təqsirləndirilən şəxsə qarşı dəlillərini irəli sürür, digər hüquqşünas (müdafiəçi) buna cavab olaraq öz dəlillərini irəli sürür, üçüncü hüquqşünas (hakim) isə onların arasında balansı qoruyur. Üç müxtəlif hüquqşünas arasında vəzifələrin bu bölgüsü təqsirləndirilən şəxsə qarşı dəlillərin sübutetmə qaydalarına və prosessual normalara uyğun olaraq ədalətli şəkildə irəli sürülməsini təmin edir. Burada əsas prinsip ondan ibarətdir ki, məhkəmə çəkişməsi sisteminə əsasən, sübutların müəyyən edilməsi zamanı hakim mübahisədən kənarda qalmalı və neytral olmalıdır.

Əhalinin cinayət işləri üzrə ədalət mühakiməsi sisteminə inamını artırmaq üçün təqsirləndirilən şəxs və məhkəmə prosesini müşahidə etmiş ictimaiyyətin məhkəməni belə bir hisslə tərk etməsi zəruri şərtdir ki, iş üzrə məhkəmə araşdırması ədalətli olub, xüsusən də məhkəmə bəraətverici sübutların təqdim edilməsinə imkan yaradıb və işdəki hər iki tərəf – müdafiə və ittiham tərəfi iş üzrə mövqelərini tam şəkildə irəli sürə biliblər.

*Müsbət və mənfi tendensiyaların qısa icmalı.* Təəssüf ki, bəzi hakimlərin davranışında açıq-aydın belə əlamətlər olub ki, onlar ədalətli məhkəmə araşdırmasının təmin olunmasında öz rollarını aydın başa düşmürlər. Belə davranış məhkəmə iclaslarını ədalətli məhkəmə araşdırması standartlarına uyğun surətdə aparmağa ciddi səy göstərən digər hakimlərə də mənfi təsir göstərir. 2010-cu il Proqramının müşahidələrinə əsasən, əlavə narahatlıq doğuran məqam ondan ibarətdir ki, siyasi motivli məhkəmə işlərində məhkəmələrin müstəqilliyinin və qərəzsizliyinin təmin edilməsi məsələsində hələ də problemlər mövcuddur.

### *5. Təqsirsizlik prezumpsiyası*

*Təqsirsizlik prezumpsiyası ədalətli məhkəmə araşdırmasının ən fundamental aspektlərindən biridir.* Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrin çoxunda təqsirsizlik prezumpsiyası nəzərdə tutulur. İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 11-ci maddəsində deyilir ki, “cinayət törətməkdə ittiham olunan hər kəs müdafiəsi üçün zəruri olan bütün təminatlara malik olmaqla keçirilən açıq məhkəmə araşdırmasında qanuna uyğun olaraq təqsiri sübut edilənə qədər təqsirsiz hesab edilmək hüququna malikdir”. Eynilə, MSHBP-nin 14-cü maddəsində bəyan edilir ki: “Cinayət törətməkdə ittiham olunan hər kəs qanuna uyğun olaraq təqsiri sübut edilənə qədər təqsirsiz hesab edilmək hüququna malikdir”. Nəhayət, AİHK-in 6-cı maddəsinin 2-ci bəndində analoji qaydada təsbit edilir ki, “cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir”. AİHM-in presedent hüququna əsasən, təqsirsizlik prezumpsiyası tələb edir ki,

“öz vəzifələrini yerinə yetirərkən məhkəmə üzvləri təqsirləndirilən şəxsin ittiham edildiyi cinayəti həqiqətən törətməsinə dair qərəzli fikirdə olmamalıdırlar; sübutetmə yükü ittiham tərəfinin üzərinə düşür və hər hansı şübhə təqsirləndirilən şəxsin xeyrinə həll edilməlidir...”.[31] Təqsirsizlik prezumpsiyası da mühüm ATƏT öhdəliklərindəndir.[32] Bundan başqa, Azərbaycanın Konstitusiyasında və CPM-ində əks olunmuş təqsirsizlik prezumpsiyası Azərbaycan qanunvericiliyinin ayrılmaz tərkib hissəsini təşkil edir.[33]

*Metal barmaqlıqlardan və qandallardan həddən artıq istifadə.* Layihə qrupu məhkəmə prosesi zamanı təqsirləndirilən şəxslərə münasibətdə hakimlərin və prokurorların davranışını təqsirsizlik prezumpsiyasına riayət edilməsi baxımından qiymətləndirib. Onlar qeydlərinə əsasən, çox vaxt təqsirləndirilən şəxslər məhkəmə zalında olarkən metal barmaqlıqlar arxasında və ya əlləri qandallı saxlanılır ki, bu da təqsirsizlik prezumpsiyasını pozur.

Layihə qrupu qeyd edib ki, bu məhdudlaşdırıcı praktika geniş yayılıb və araşdırılan ittihamların ağırlığından və təqsirləndirilən şəxsin məhkəmə zalında doğura biləcəyi real təhlükə ilə bağlı hər hansı təhlükəsizlik mülahizələrindən asılı olmayaraq, Azərbaycan məhkəmələrində sistematik xarakter daşıyır ki, bu da təqsirləndirilən şəxsin ləyaqətini alçaldır və həddən artıq güc tətbiqi sayıla bilər. Bununla belə, Layihə qrupu bir neçə təqdirəlayiq nümunə barədə məlumat verib və həmin nümunələrdə hakim (hakimlər) ya öz təşəbbüsü ilə, ya da təqsirləndirilən şəxslərin vəsatətləri əsasında məhkəmə nəzarətçilərinə göstəriş verib ki, təqsirləndirilən şəxsləri metal barmaqlıqlardan azad etsinlər. Əvvəlki məhkəmə monitorinqi hesabatlarında Ofis tövsiyə etmişdi ki, Ədliyyə Nazirliyi məhkəmə iclaslarında, xüsusən qeyri-zorakı cinayətlərə dair işlərdə metal barmaqlıqlardan istifadəni dayandırsın, çünki onların istifadəsi dolayısı ilə o deməkdir ki, təqsirləndirilən şəxsin metal barmaqlıqlar arxasında saxlanması tələb olunur, bu isə faktiki olaraq təqsirsizlik prezumpsiyasının pozuntusudur.

*Dövlət ittihamçıları qeyri-münasib davranışdan və dildən istifadə edirlər.* Layihə qrupu bir neçə halda prokurorların düzgün olmayan davranışını müşahidə edib, belə ki, onlar təqsirləndirilən şəxsə müraciət edərkən və ya onun barəsində danışarkən münasib olmayan sözlərdən istifadə ediblər, məsələn, təqsirləndirilən şəxs barəsində “cinayətkar” sözünü işlədiblər. Məhkəmə yekun qərar qəbul edənə qədər dövlət ittihamçıları təqsirsizlik prezumpsiyasından kənara çıxan və ya təqsirləndirilən şəxsi artıq məhkum olunmuş şəxs kimi səciyyələndirən ehtiyatsız ifadələrdən istifadə etmədən ittiham dəlillərini ədalətli şəkildə irəli sürməkdən ibarət vəzifə və öhdəliklərini yerinə yetirməlidirlər.

[31] *Barbera, Messege və Xabardo İspaniyaya qarşı*, AİHM-in 6 dekabr 1988-ci il tarixli qərarı, 77-ci bənd.
[32] Kopenhagen Sənədi (1990).
[33] Konstitusiyanın 63-cü maddəsi və CPM-in 21-ci maddəsi.

*Müsbət və mənfi tendensiyaların qısa icmalı*. 2010-cu il hesabatı xüsusilə də siyasi motivli işlərdə hələ də aradan qaldırılmayan problemləri təkrarlayıb. Bir çox hallarda Layihə qrupu məlumat verib ki, hakimlər, prokurorlar və məhkəmə işçiləri sübutlar nəzərdən keçirilməmişdən əvvəl təqsirləndirilən şəxsin cinayət törətdiyi barədə qərəzli təsəvvürlərini nümayiş etdiriblər və bununla da həm hakim qismində öz peşə məsuliyyətlərini, həm də təqsiri sübut edilənə qədər təqsirləndirilən şəxsin təqsirsiz sayılması hüququnu pozublar.[34] Bundan başqa, təqsirləndirilən şəxslərin məhkəmə zalında əlləri qandallı və barmaqlıqlar arxasında saxlanılmasına gəldikdə, təqsirsizlik prezumpsiyasının zahiri təzahürləri böyük əhəmiyyət kəsb edir və mühüm məsələ ondan ibarətdir ki, təqsirləndirilən şəxslər yalnız ən son təhlükəsizlik tədbiri qismində və yalnız müstəsna hallarda[35] metal barmaqlıqlar arxasında yerləşdirilməlidirlər.

### *6. Tərəflərin bərabərliyi*

*"Ədalətli balans" mənasında tərəflərin bərabərliyi ədalətli məhkəmə araşdırmasının əsas elementlərindən biridir*. Tərəflərin bərabərliyi prinsipi tələb edir ki, prosesdəki bütün tərəflər məhkəmədə onları əlverişsiz vəziyyətə salmayan şəraitdə dəlillərini irəli sürmək üçün bərabər imkanlara malik olmalıdırlar.[36] Bu o deməkdir ki, bütün sübutlarla tanış olmaları və onlara dair qeydlərini bildirmələri üçün cinayət işindəki tərəflərə bərabər imkanlar yaradılmalıdır.[37] Bu kontekstdə ədalət mühakiməsinin ədalətli şəkildə həyata keçirilməsinin zahiri təzahürləri xüsusi əhəmiyyət kəsb edir.[38] Tərəflərin bərabərliyi konsepsiyası təməl hüquq olan məhkəmə araşdırmasının bütün mərhələlərində vəkillə təmsil olunmaq hüququ ilə də qırılmaz şəkildə bağlıdır. Ədalətli məhkəmə araşdırmasının ümumi tələbi ondan ibarətdir ki, hakimlər ifadələri iş üçün əhəmiyyətli sayılan şahidlərin təqsirləndirilən şəxslər tərəfindən məhkəməyə dəvət edilməsinə və dindirilməsinə icazə verməli və təqsirləndirilən şəxslərə ittiham tərəfinin çağırdığı istənilən şahidi dindirmək imkanı verməlidirlər. Şahidlərin məhkəməyə çağırılması və dindirilməsi proseduru ittiham tərəfi üçün necədirsə, müdafiə tərəfi üçün də eynilə o cür olmalıdır. Beləliklə, şahidlərin müdafiə tərəfi üçün bəraətverici ifadə verməsinə və ittiham tərəfinin şahidlərini müdafiə tərəfinin dindirməsinə imkan verməyən hakimin davranışı təqsirləndirilən şəxslərə qarşı qərəzliliyi nümayiş etdirir.

---

[34] Monitorinq aparanlar bunu işlərin təxminən 10%-ində müşahidə ediblər.
[35] Söhbət əvvəllər məhkum olunmuş residivistlərdən getdikdə və baxılan cinayətlərin ağırlığından asılı olaraq.
[36] Bax: *De Hayes və Giysels Belçikaya qarşı*, AİHM-in 24 fevral 1997-ci il tarixli qərarı, 53-cü bənd.
[37] *Ruis-Mateos İspaniyaya qarşı*, 23 iyun 1993-cü il tarixli qərar, A seriyaları, № 262; *16 E.H.R.R. 505*, 63-cü bənd.
[38] *Bulut Avstriyaya qarşı*, 22 fevral 1996-cı il tarixli qərar, *R.J.D. 1996-1, No.3; 23 E.H.R.R. 84*, 47-ci bənd.

*AİHM-in bu məsələyə aid presedent hüququ.* Bu yaxınlarda baxılmış *Pirəli Orucov Azərbaycana qarşı* məhkəmə işində[39] AİHM müəyyən edib ki, Ali Məhkəmə ərizəçinin kassasiya şikayətinə onun iştirakı olmadan baxdığına görə AİHK-in 6-cı maddəsi Azərbaycan tərəfindən pozulub.[40] Beləliklə, prosesin ədalətli aparılması tələb edir ki, ağır cinayət ittihamlarının irəli sürüldüyü mürəkkəb işlərdə təqsirləndirilən şəxs iştirak etməlidir və belə hallarda, təqsirləndirilən şəxsə qarşı irəli sürülən bu ittihamlara səmərəli şəkildə etiraz edə biləcək yeganə şəxs müdafiəçidir.

*Hakimlər tərəfindən təqsirləndirilən şəxslərin vəsatətlərinə, sübutlarına və çarpaz dindirmə hüququna ittiham tərəfi ilə bərabər qaydada baxılması.* Kifayət qədər çox işdə Layihə qrupu elə hallar barədə məlumat verib ki, bu zaman hakim (hakimlər) məsələni dərindən araşdırmadan və ən önəmlisi, tutarlı hüquqi əsaslandırma ortaya qoymadan təqsirləndirilən şəxslərin qaldırdığı vəsatətləri rədd edib.[41] Bundan başqa, 30-dan artıq məhkəmə iclasında hakimlər heç bir əsaslandırma gətirmədən, ittiham tərəfinin məsləhətinə əməl edərək müdafiə tərəfi üçün mühüm əhəmiyyət daşıyan şahidlərin çağırılması barədə müdafiə tərəfinin vəsatətlərini rədd ediblər.

---

[39] Ərizə № 8460/073, fevral 2011-ci il.

[40] Məsələn, qərarın 42-46-cı bəndlərində deyilir:

*"[...] 42. Məhkəmə bir daha bildirir ki, ədalətli məhkəmə araşdırması konsepsiyası tərəflərin bərabərliyi prinsipini və cinayət prosesinin çəkişmə xarakterli olmasından ibarət təməl hüququ özündə ehtiva edir. Bu o deməkdir ki, həm ittiham, həm də müdafiə tərəfinə imkan verilməlidir ki, digər tərəfin bildirdiyi fikirlərdən və təqdim etdiyi dəlillərdən xəbərdar olsunlar və onlara dair şərhlərini bildirsinlər (bax: Brandstetter Avstriyaya qarşı, 28 avqust 1991-ci il, 66-67-ci bəndlər, A seriyaları, № 211).*

*43. Bundan əlavə, bütövlükdə götürülməklə Konvensiyanın 6-cı maddəsi təminat verir ki, cinayət törətməkdə ittiham olunan şəxs, bir qayda olaraq, ona qarşı cinayət ittihamlarının müəyyən edilməsinə aid məhkəmə iclasına gəlmək və orada səmərəli şəkildə iştirak etmək hüququna malik olmalıdır. Bu hüquq çəkişmə xarakteri proses anlayışının mahiyyətindən doğur və həmçinin 6-cı maddənin 3-cü bəndinin (c), (d) və (e) yarımbəndlərindən irəli gəlir (bax: Kolotsa İtaliyaya qarşı, 12 fevral 1985-ci il, 27-ci bənd, A seriyaları, № 89; və Stenford Birləşmiş Krallığa qarşı, 23 fevral 1994-cü il, 26-cı bənd, A seriyaları, № 282-A). Hazırkı işdə təsəvvür etmək çətindir ki, ərizəçi məhkəmə iclası barədə qabaqcadan xəbərdar edilmədən bu hüquqları necə həyata keçirə bilərdi.*

*44. Bundan başqa, Məhkəmə qeyd edir ki, dövlət ittihamçısı kassasiya şikayətinin baxıldığı iclasda iştirak edib və məhkəməyə şifahi arqumentlərini bildirib. Bu arqumentlər ərizəçinin şikayətinin rədd edilməsinə və onun barəsindəki ittiham hökmünün qüvvədə saxlanmasına yönəlib. Bu halı və ərizəçinin vəkillə təmsil olunmadığını nəzərə alaraq, Ali Məhkəmə prosesin çəkişmə xarakterini təmin etmək üçün ərizəçinin iclasda iştirakının təmin olunmasına yönələn tədbirlər görmək vəzifəsini daşıyırdı. Lakin iclası ərizəçinin iştirakı olmadan davam etdirməyi qərara alarkən Ali Məhkəmənin ərizəçiyə məhkəmə çağırışının həqiqətən təqdim edilib-edilmədiyini yoxladığını göstərən heç bir əlamət yoxdur. Ali Məhkəmənin qərarında ərizəçinin iclasda iştirak etməməsi məsələsi barədə heç nə deyilmir.*

*45. Məhkəmə daha sonra qeyd edir ki, o, müəyyən işlərdə qərara alıb ki, yalnız hüquqi məsələlərin nəzərdən keçirildiyi apellyasiya iclasında təqsirləndirilən şəxsin şəxsən iştirak etməməsi mühüm əhəmiyyət daşımır (misal üçün bax: Kremzov Avstriyaya qarşı, 21 sentyabr 1993-cü il, A seriyaları, № 268-B; və Kamazinski Avstriyaya qarşı, 19 dekabr 1989-cu il, A seriyaları, № 168). Lakin Məhkəmə hesab edir ki, hazırkı iş Kremzovla Kamazinskinin işlərindən fərqlidir, həmin işlərdə təqsirləndirilən şəxslər vəkillə təmsil olunmuşdular və prinsipcə onların hər biri özünü müdafiə etmək imkanına malik idi. Məsələyə daha fundamental yanaşsaq, hazırkı işdə ərizəçi bunu etmək imkanına malik deyildi, ona görə ki, iclas barədə qabaqcadan xəbərdar edilməmişdi (müqayisə et: Ziliberberq Moldovaya qarşı, ərizə № 61821/00, 41-ci bənd, 1 fevral 2005-ci il; Maksimovun işi üzrə yuxarıda adı çəkilən qərar, 41-ci bənd; və Abbasovun işi üzrə yuxarıda adı çəkilən qərar, 33-cü bənd).*

*46. Buradan belə nəticə çıxır ki, Ali Məhkəmədəki icraat ədalətlilik tələbinə cavab verməyib. Müvafiq olaraq, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin pozuntusu baş verib. [...]".*

[41] Bir çox işlərdə müdafiə tərəfinin vəsatətləri əlavə məhkəmə sübutlarının təqdim edilməsi, başqa ekspertizanın təyin olunması və əlavə şahidlərin dəvət edilməsi ilə bağlı olub.

*Hakimlər ittiham tərəfi üçün əlverişli şərait yaradırlar.* İşlərin təxminən 20%-də müdafiə tərəfi ilə müqayisədə ittiham tərəfinin əlverişli vəziyyətdə olduğu təəssüratı yaranıb, məsələn, ittiham tərəfi hazırlıq iclasının zərərçəkənin iştirakı olmadan keçirilməsini məhkəməyə təklif edib. İttiham tərəfi iclasın təxirə salınması barədə müdafiə tərəfinin vəsatətinə mənfi reaksiya verdikdə məhkəmə təqsirləndirilən şəxsin vəsatətinə əhəmiyyət verməyib. Digər bir işdə ittihamçı təqsirləndirilən şəxsin hal şahidini dindirməsinə müdaxilə edib, hakim isə bunun qarşısını almayıb. İşlərin 70%-indən çoxunda hakimlər ibtidai istintaq mərhələsində hər hansı pozuntuların olub-olmadığını yalnız dövlət ittihamçılardan soruşublar, təqsirləndirilən şəxsin bu məsələyə dair iddialarına isə əhəmiyyət verməyiblər. Məhkəmə Monitorinqi Qrupu 40 məhkəmə iclasında belə bir hal aşkar edib ki, hakimlər şahidlərin özlərinin iştirakı olmadan onların ifadələrinin məhkəmə iclasında oxunması barədə prokurorların vəsatətlərini təmin ediblər və hər hansı əsaslandırma gətirməyiblər. İttiham tərəfinin şahidlərinin iclasda iştirak etməməsi ilə bağlı dövlət ittihamçıların izahatı isə bir çox hallarda belə bir iddiadan ibarət olub ki, şahidi məhkəməyə çağırmaq mümkün deyil. Belə praktika çəkişmə prinsipinə ziddir.

Layihə qrupu həmçinin məlumat verib ki, bəzi məhkəmə iclaslarında hakimlər öncədən yazılı şəkildə alınmış şahid ifadələrinin həmin şahidlərin iştirakı olmadan oxunması barədə ittihamçıların vəsatətlərini hər hansı əsas gətirmədən təmin ediblər və bununla da çarpaz dindirməni mümkünsüz ediblər. Müşahidəsi aparılan iclasların təxminən 3%-ində müdafiə tərəfinin buna etirazları hakim tərəfindən hər hansı əsas gətirilmədən rədd edilib ki, bu da prosesin çəkişmə xarakteri daşıması prinsipini pozur. Əslində, ədalətli məhkəmə araşdırması standartları tələb edir ki, ittiham tərəfinin bütün dəlilləri təqsirləndirilən şəxsin iştirakı ilə açıq məhkəmə iclasında təqdim edilməlidir.[42] Ədalətli məhkəmə araşdırması standartları yalnız müstəsna hallarda və hakimlərin ədalətli və açıq əsaslandırmaları əsasında müdafiə tərəfinin çarpaz dindirə bilməyəcəyi şahidin ifadəsinə ittiham tərəfinin sübut kimi istinad etməsinə icazə verir.

Beşdən artıq məhkəmə iclasında hakimlər ittihamçılara imkan veriblər ki, ibtidai istintaq zamanı təqsirləndirilən şəxsə qarşı verdikləri ifadələrdən imtina etmək istəyən şahidlərə təzyiq göstərsinlər. Layihə qrupu ondan çox məhkəmə işi barədə məlumat verib ki, burada şahidlər öncə verdikləri ifadələrdən imtina ediblər. Belə halların bəzilərində hətta şahidlər ibtidai istintaq zamanı müstəntiqlər tərəfindən təqsirləndirilən şəxsə qarşı ifadə verməyə məcbur edildiklərini bildiriblər. Lakin hakimlər onların dediklərinə əhəmiyyət verməyiblər. Bu, təkcə hakimlərin ittiham tərəfinin xeyrinə qərəzlilik etdiyini nümayiş etdirmir, həm də onu göstərir ki, şahidin təqsirləndirilən şəxsə qarşı ifadə verməyə məcbur edildiyi barədə iddialar məhkəmə araşdırmasında irəli sürüldükdə həmin ifadənin ibtidai

[42] Bax: *Barbera, Messege və Xabardo İspaniyaya qarşı*, AİHM-in 6 dekabr 1988-ci il tarixli qərarı, 78-ci bənd.

istintaqda hansı şəraitdə alındığını tam araşdırmaq vəzifəsi hakimlər tərəfindən kobud şəkildə pozulub.

Məhkəmə binasındakı şərait və imkanlar da məhkəmə prosesinin çəkişmə xarakterinə və tərəflərin bərabərliyi prinsipinə təsir göstərə bilər. Bəzi məhkəmələrdə şahidlərin ayrı-ayrı yerləşdirilməsi üçün müvafiq imkanlar olmayıb ki, bu da pozuntulara gətirib çıxara bilər, məsələn, şahidlər məhkəmə iclasında dindirilməzdən əvvəl bir-biri ilə ünsiyyətdə ola bilərlər. Bəzi hallarda şahidlər ifadə verməzdən əvvəl məhkəmə prosesini və digər şahidlərin ifadələrini dinləyə biliblər ki, bununla da onların öz ifadələrinin obyektivliyinə qarşı ciddi şübhə yaranmış olur. Azərbaycanın Cinayət Prosessual Məcəlləsinə əsasən,[43] məhkəmə araşdırması zamanı şahidlər ayrı-ayrılıqda və onlardan sonra dindiriləcək şahidlərin iştirakı olmadan dindirilməlidirlər. Bu qayda şahidlərə qarşı arzuolunmaz və ya namünasib təsirlərin qarşısını almağa yönəlib.

*Müsbət və mənfi tendensiyaların qısa icmalı.* 2010-cu il Hesabatı təkrar edir ki, ümumilikdə tərəflərin bərabərliyi prinsipinə riayət olunmasında çatışmazlıqlar var və ittiham tərəfinin xeyrinə olaraq təqsirləndirilən şəxslərə qarşı qərəzlilik davam etməkdədir ki, bu da daha çox konkret çatışmazlıqların nəticəsi ola bilər. Məsələn: 1) Azərbaycanda ixtisaslı vəkillərin sayə yetərincə deyil və bundan başqa, dövlət hesabına təyin olunan vəkillərin hüquq təmsilçiliyi aşağı keyfiyyətlidir. 2) Belə görünür ki, bir çox hakimlər təqsirləndirilən şəxslərə və şahidlərə onların hüquqları barədə müvafiq qaydada məlumat vermək vəzifələrinə mütəmadi olaraq etinasız yanaşırlar.

### *7. Vəkillə səmərəli şəkildə təmsil olunmaq hüququ*

*Vəkillə səmərəli şəkildə təmsil olunmaq hüququnun əsas anlayışı.* AİHK-in 6-cı maddəsinin 3-cü bəndinə əsasən, cinayət törətməkdə ittiham olunan hər kəs, ən azından şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə, belə müdafiədən pulsuz istifadə etmək hüququna malikdir. Bu hüquq cinayət prosesinin bütün mərhələlərinə, o cümlədən ibtidai istintaq mərhələsinə şamil olunur. Təqsirləndirilən şəxslər aşağıdakı hüquqlara malikdirlər: 1) özü-özünü müdafiə etmək, 2) öz xərcləri hesabına özlərinin seçdiyi vəkili hüquqi yardım üçün cəlb etmək; yaxud 3) Azərbaycanın daxili qanunvericiliyinə uyğun olaraq, istənilən halda dövlət hesabına təyin olunan vəkilin pulsuz hüquqi yardımından istifadə etmək.

[43] CPM-in 328.1-ci maddəsi.

*Hakimlər təqsirləndirilən şəxsin vəkillə səmərəli şəkildə təmsil olunmaq hüququnun təmin edilməsinə görə məsuliyyət daşıyır.* Azərbaycan qanunvericiliyinə əsasən, hakimin vəkillə təmsil olunmanın mühümlüyü barədə təqsirləndirilən şəxsə məlumat verməsi açıq şəkildə tələb olunmur. Lakin təqsirləndirilən şəxsin vəkillə təmsil olunmaması qaçılmaz olaraq tərəflərin bərabərliyinin pozulmasına gətirib çıxarır və bu da ədalətli məhkəmə araşdırmasına dair beynəlxalq standartların pozuntusuna bərabərdir. Buna görə də, Azərbaycanın beynəlxalq hüquqi öhdəliklərinə riayət edilməsi üçün nəticə etibarı ilə hakimlər təqsirləndirilən şəxsin vəkillə təmsil olunmaq hüququ barədə məlumatlandırılmasını və dövlət tərəfindən təyin edilmiş hüquqi yardımın praktiki və səmərəli olmasını təmin etməyə görə cavabdehlik daşıyırlar. Bundan başqa, hakimlər təqsirləndirilən şəxslərin təməl hüququ olan məhkəmə prosesində vəkillə *səmərəli* şəkildə təmsil olunmaq hüququ barədə onların məlumatlandırılmasına və bu hüququn praktikada təmin edilməsinə görə cavabdehdirlər, çünki hüquqi təmsilçiliyin, xüsusən də dövlət hesabına təyin olunmuş vəkilin hüquqi təmsilçiliyinin aşağı keyfiyyətli olması təqsirləndirilən şəxsin təməl hüququ olan məhkəmə prosesində vəkillə səmərəli şəkildə təmsil olunmaq hüququna birbaşa xələl gətirir.[44] Layihə qrupu daha sonra qeyd edib ki, təməl hüquq olan müdafiəçi ilə təmsil olunmaq hüququ bir çox hallarda təqsirləndirilən şəxs tərəfindən ya düzgün başa düşülmür, ya da lazımınca qiymətləndirilmir.

*Vəkillə səmərəli şəkildə təmsil olunmaq hüququndan imtina.* Bir sıra məhkəmə iclaslarında Layihə qrupu qeyd edib ki, təqsirləndirilən şəxslər yazılı imtina sənədini imzalamaqla hüquqi yardımdan imtina ediblər. Bu işlərdəki 30-dan artıq məhkəmə iclasında Layihə qrupu məlumat verib ki, məhkəmə iclası başlamazdan əvvəl və hakim hüquqi yardım almaq hüququnu təqsirləndirilən şəxslərə izah etmək üçün müvafiq imkan əldə etməzdən qabaq məhkəmə iclas katibi təqsirləndirilən şəxslərə hüquqi yardımdan imtina sənədini imzalamaları üçün təqdim edib. Belə hallarda sədrlik edən hakim, bir qayda olaraq, hüquqi yardımla təmin olunmanın mühümlüyünü təqsirləndirilən şəxsə izah etmək üçün heç bir tədbir görməyib və bunun əvəzinə, təqsirləndirilən şəxsə təklif edib ki, imtinasını yazılı şəkildə təsdiq etsin. Layihə qrupu həmçinin məlumat verib ki, bəzi məhkəmə iclaslarında təqsirləndirilən şəxslər sadəcə imkanları olmadığına görə vəkillə təmsil olunmaqdan imtina ediblər, hakim isə onlara izah etməyib ki, Azərbaycan qanunvericiliyinə əsasən, maliyyə vəziyyətlərindən asılı olmayaraq müdafiəçiyə malik olmaq bütün təqsirləndirilən şəxslərin konstitusion hüququdur.[45]

---

[44] AİHM bildirib ki, pulsuz hüquqi yardım göstərən vəkilin hər bir nöqsanına görə dövlət orqanları məsuliyyət daşıya bilməzlər, amma bununla belə, sadəcə müdafiəçinin təyin olunması da yetərli deyil. Müvafiq olaraq, ədalətli məhkəmə araşdırması standartlarına riayət edilməsinin əsas təminatçıları olaraq hakimlər ya müştərisi qarşısında vəzifələrini hər hansı səbəbdən yerinə yetirməyən vəkili işdən kənarlaşdırmalı, ya da vəkildən müştərisi qarşısındakı vəzifələrini yerinə yetirməsini tələb etməlidir (*Artiko İtaliyaya qarşı*, 1981-ci il).

[45] Məsələn: apellyasiya məhkəməsi səviyyəsində həll edilmiş bir işdə təqsirləndirilən şəxs deyib ki, Ali Məhkəməyə ona görə şikayət verə bilməyib ki, maliyyə vəsaiti olmadığna görə vəkil tutmaq imkanına malik olmayıb. Bunun cavabında hakim vəkildən soruşub: "əgər şəxs yoxsuldursa, kassasyia şikayəti yazmaq üçün ondan nə qədər pul alırsan?". Vəkil deyib: "50 manat". Hakimlə vəkil arasındakı bu fikir mübadiləsi hüquqi yardım sisteminin səmərəsizliyini təsdiq edir, belə ki, təqsirləndirilən şəxs imkansız olduğu üçün vəkil tutmağı özünə rəva görə bilməz.

*Dövlət hesabına təyin olunan müdafiəçi tərəfindən səmərəli şəkildə müdafiə olunmaq yolunda maneələr və "pulsuz" hüquqi yardım.* Layihə qrupu müşahidə edib ki, dövlət hesabına təyin edilmiş vəkillər səmərəli hüquqi yardım göstərmirlər. Layihə qrupu həmçinin məlumat verib ki, bəzi işlərdə pulsuz hüquqi yardım göstərən vəkillər ödənişsiz hüquqi yardım üçün dövlətin ayırdığı vəsaitə əlavə olaraq, təqsirləndirilən şəxsdən və (və ya) onun qohumlarından haqq istəyiblər, bu isə təqsirləndirilən şəxsin pulsuz hüquqi yardım hüququnun kobud pozuntusudur. Kifayət qədər məhkəmə iclasında Layihə qrupu dövlət hesabına təyin edilmiş müdafiəçilərin göstərdiyi hüquqi yardımın keyfiyyətinin aşağı olduğu və onların öz vəzifələrini səriştəli şəkildə yerinə yetirmədikləri barədə məlumat verib.[46] Layihə qrupu daha sonra məlumat verib ki, təyin olunan vəkillər bir çox hallarda işə aid hər hansı hüquqi suallar vermirlər, vəsatət qaldırmırlar, yaxud sübutları təqdim etmək üçün heç bir təşəbbüs göstərmirlər. Əksinə, dövlət hesabına təyin olunan vəkillər çox vaxt passiv mövqe nümayiş etdirərək təqsirləndirilən şəxsi müdafiə etməkdə maraqlı olmadıqları təəssüratını yaradırlar.

*Dövlət hesabına müdafiəçinin təyin olunmasında prosessual problemlər.* Digər amillərlə yanaşı, pulsuz hüquqi yardım sistemi çərçivəsində müdafiəçinin təyin olunması proseduru özlüyündə aşağı səviyyəli təmsilçiliyə şərait yaradır. Hesabatda dövlət hesabına təyin olunmuş vəkillərlə bağlı məlumatların verildiyi bütün hallarda hakimlər vəkilin təyin olunması barədə qərarı hazırlıq iclasının başlanmasından azacıq əvvəl çıxarıblar və bununla da müdafiəyə yetərincə hazırlaşmaq üçün müdafiə tərəfinə vaxt verməyiblər. Bundan başqa, təqsirləndirilən şəxslər ibtidai istintaqda və məhkəmə prosesində dövlət hesabına təyin olunmuş müxtəlif vəkillərlə təmsil olunduğuna görə dövlətin təyin etdiyi vəkillərin işi ardıcıl olmayıb. Məhkəmə icraatının ortasında müdafiəçinin əvəz edilməsi, yəqin ki, təqsirləndirilən şəxslərin aldığı hüquqi xidmətlərin keyfiyyətinə və səmərəliliyinə mənfi təsir göstərir.

*Vəkillə təmsil olunmaq və məhkəmə prosesində ləngimələr.* Layihə qrupu həmçinin belə bir geniş yayılmış praktikanı müşahidə edib ki, dövlət hesabına təyin olunan vəkillər təqsirləndirilən şəxslərin adından hərəkət etməkdən imtina edir, yaxud üzrlü səbəb olmadan məhkəmə iclaslarına gəlmirlər və bununla da məhkəmə prosesini gecikdirmiş olurlar. Nəticədə müdafiəçilər həm ədalət mühakiməsinin, həm də təqsirləndirilən şəxsin maraqları naminə müdafiə arqumentlərini lazımi qaydada hazırlamaq

[46] Məsələn: […] "*Vəkil*: Möhtərəm hakim, təqsirləndirilən şəxs cinayət törətdiyini etiraf etdi və təqsirini boynuna aldı. Sonuncu iclasda o, xahiş etdi ki, işin icraatı tezləşdirilsin. Mən bu məsələdə onu dəstəkləyirəm və xahiş edirəm ki, məhkəmə araşdırmasını başa çatdırasınız. *Hakim*: Önəmli olan onun etirafı deyil. Onun cinayət törtəməsi dəlillərlə sübuta yetirilməlidir. *Vəkil*: Mən həmçinin hesab edirəm ki, təqsirləndirilən şəxsin cinayət törətməsi məhkəmə araşdırmasında tamamilə sübuta yetirilib". "*Vəkil*: Düşünürəm ki, biz məhkəmə iclasını davam etdirməliyik. *Hakim*: Amma bir qayda olaraq, müdafiə tərəfi həmişə şahidin dindirilməsində maraqlı olur. *Vəkil*: Bəli, amma mən buraya neçə dəfə gəlməliyəm". […]

üçün kifayət qədər vaxta malik olmurlar. Daxili qanunvericiliyə əsasən,[47] müdafiəçi üzrlü səbəblər olmadan və məhkəməyə əvvəlcədən bildirmədən məhkəmə iclasına gəlmədikdə və onun bu iclasda əvəz edilməsi mümkün olmadıqda, cinayət işinə baxılması təxirə salınır və məhkəmə iclası başqa vaxta keçirilir. Layihə qrupu məlumat verib ki, bu hüquqi tələbə zidd olaraq, məhkəmə iclaslarının təxminən 20%-ində hakim (hakimlər) məhkəmə iclasını müdafiəçinin iştirakı olmadan keçirməyə, yaxud müdafiəçiyə malik olmaq hüququndan imtina etməsini təqsirləndirilən şəxsə təklif etməyə üstünlük verib.[48]

*Müsbət və mənfi tendensiyaların qısa icmalı.* Ciddi narahatlıq doğuran məsələdir ki, 2010-cu ildə aparılmış məhkəmə araşdırmalarının müşahidəsi zamanı Layihə qrupu hesabat dövründə bundan əvvəlki hesabatlarla müqayisədə dövlət hesabına təyin olunan müdafiəçilərin xidmətlərinin keyfiyyətində, yaxud təqsirləndirilən şəxslərin vəkillə təmsil olunmaq hüququnu həyata keçirmələrini təmin etmək vəzifəsinin hakimlər tərəfindən yerinə yetirmələrində hər hansı irəliləyiş müşahidə etməyib. Əksinə, Layihə qrupu cinayət işlərində dövlət hesabına təyin olunan vəkillərin xidmətlərinin aşağı keyfiyyətli olduğunu bu hesabat dövründə davamlı olaraq müşahidə edib.

Layihə qrupu müsbət məqam kimi bunu qeyd edir ki, dövlət tərəfindən hüquqi yardımın təyin olunduğu halların sayı 2009-cu ildə 7%-dən 2010-cu ildə 20%-dək artıb, hüquqi yardımın təyin olunmadığı halların sayı isə 2009-cu ildə 74%-dən 2010-cu ildə 68%-dək azalıb.

---

[47] CPM-in 312.5-ci maddəsi.

[48] Məsələn: *Hakim*: Vəkiliniz varmı? *Təqsirləndirilən şəxs*: Yox. *Hakim*: Özünüz-özünüzü müdafiə edəcəksinizmi? *Təqsirləndirilən şəxs*: Bəli. *İttihamçı*: Təklif edirəm ki, məhkəmə iclası təxirə salınsın, o, vəkillə təmsil olunsun, sonra məhkəmə iclası keçirilsin. O, özü-özünü müdafiə edə bilməz. *Hakim*: Ona vəkil təyin olunub, amma gəlməyib. Təqsirləndirilən şəxs, etiraz etmirsinizsə, məhkəmə iclasını keçirək. *Təqsirləndirilən şəxs*: Etiraz etmirəm. *Hakim*: Onda müdafiəçidən rəsmən imtina etdiyiniz barədə sənədi imzalayın.

**14-cü cədvəl. Monitorinq Olunmuş İşlərdə Hüquq Xidmətlərinin Göstərilməsi**



| MƏHKƏMƏLƏR | müqavilə əsasında göstərilən hüquq xidmətləri | dövlət hesabına təyin olunmuş hüquqi yardım | hüquq xidməti göstərilməyib |
|---|---|---|---|
| Bakı Apellyasiya Məhkəməsi | 4 | 0 | 1 |
| Gəncə Apellyasiya Məhkəməsi | 3 | 3 | 5 |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 2 | 1 | 6 |
| Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə | 16 | 34 | 6 |
| Binəqədi Rayon Məhkəməsi | 3 | 10 | 4 |
| Qaradağ Rayon Məhkəməsi | 1 | 0 | 0 |
| Xətai Rayon Məhkəməsi | 4 | 21 | 3 |
| Nərimanov Rayon Məhkəməsi | 1 | 7 | 12 |
| Nəsimi Rayon Məhkəməsi | 3 | 12 | 4 |
| Nizami Rayon Məhkəməsi | 0 | 17 | 1 |
| Səbail Rayon Məhkəməsi | 0 | 4 | 2 |
| Sabunçu Rayon Məhkəməsi | 4 | 10 | 2 |
| Suraxanı Rayon Məhkəməsi | 0 | 6 | 1 |
| Yasamal Rayon Məhkəməsi | 3 | 3 | 2 |
| Gəncə-Kəpəz Rayon Məhkəməsi | 0 | 3 | 6 |
| Gəncə-Nizami Rayon Məhkəməsi | 0 | 12 | 3 |
| Sumqayıt Şəhər Məhkəməsi | 0 | 0 | 11 |
| Abşeron Rayon Məhkəməsi | 3 | 0 | 24 |
| Qəbələ Rayon Məhkəməsi | 0 | 0 | 1 |
| Qobustan Rayon Məhkəməsi | 0 | 0 | 2 |
| Cəlilabad Rayon Məhkəməsi | 1 | 0 | 0 |
| Xaçmaz Rayon Məhkəməsi | 0 | 1 | 0 |
| Lənkəran Rayon Məhkəməsi | 1 | 0 | 0 |
| Masallı Rayon Məhkəməsi | 0 | 0 | 2 |
| Salyan Rayon Məhkəməsi | 0 | 0 | 2 |
| Şamaxı Rayon Məhkəməsi | 0 | 0 | 4 |
| Şuşa Rayon Məhkəməsi | 2 | 0 | 0 |
| **CƏMİ:** | **51** | **144** | **104** |

**15-ci cədvəl. Hüquq Xidmətlərinin Göstərilməsi – Bakıda Monitorinqi Aparılmış İşlər**




| MƏHKƏMƏLƏR | müqavilə əsasında göstərilən hüquq xidmətləri | dövlət hesabına təyin olunmuş hüquqi yardım | hüquq xidməti göstərilməyib |
|---|---|---|---|
| Bakı Apellyasiya Məhkəməsi | 4 | 0 | 1 |
| Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə | 16 | 34 | 6 |
| Binəqədi Rayon Məhkəməsi | 3 | 10 | 4 |
| Qaradağ Rayon Məhkəməsi | 1 | 0 | 0 |
| Xətai Rayon Məhkəməsi | 4 | 21 | 3 |
| Nərimanov Rayon Məhkəməsi | 1 | 7 | 12 |
| Nəsimi Rayon Məhkəməsi | 3 | 12 | 4 |
| Nizami Rayon Məhkəməsi | 0 | 17 | 1 |
| Səbail Rayon Məhkəməsi | 0 | 4 | 2 |
| Sabunçu Rayon Məhkəməsi | 4 | 10 | 2 |
| Suraxanı Rayon Məhkəməsi | 0 | 6 | 1 |
| Yasamal Rayon Məhkəməsi | 3 | 3 | 2 |
| **CƏMİ:** | **39** | **124** | **38** |

**16-cı cədvəl. Hüquq Xidmətlərinin Göstərilməsi – Regionlarda Monitorinqi Aparılmış İşlər**




| MƏHKƏMƏLƏR | müqavilə əsasında göstərilən hüquq xidmətləri | dövlət hesabına təyin olunmuş hüquqi yardım | hüquq xidməti göstərilməyib |
|---|---|---|---|
| Gəncə Apellyasiya Məhkəməsi | 3 | 3 | 5 |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 2 | 1 | 6 |
| Gəncə-Kəpəz Rayon Məhkəməsi | 0 | 3 | 6 |
| Gəncə-Nizami Rayon Məhkəməsi | 0 | 12 | 3 |
| Sumqayıt Şəhər Məhkəməsi | 0 | 0 | 11 |
| Abşeron Rayon Məhkəməsi | 3 | 0 | 24 |
| Qəbələ Rayon Məhkəməsi | 0 | 0 | 1 |
| Qobustan Rayon Məhkəməsi | 0 | 0 | 2 |
| Cəlilabad Rayon Məhkəməsi | 1 | 0 | 0 |
| Xaçmaz Rayon Məhkəməsi | 0 | 1 | 0 |
| Lənkəran Rayon Məhkəməsi | 1 | 0 | 0 |
| Masallı Rayon Məhkəməsi | 0 | 0 | 2 |
| Salyan Rayon Məhkəməsi | 0 | 0 | 2 |
| Şamaxı Rayon Məhkəməsi | 0 | 0 | 4 |
| Şuşa Rayon Məhkəməsi | 2 | 0 | 0 |
| **CƏMİ:** | **12** | **20** | **66** |

17-ci cədvəl. Müqayisəli Diaqram: Hüquq Xidmətlərinin Göstərilməsi









***8. Pis rəftar barədə iddiaların səmərəli şəkildə araşdırılması***

*İşgəncə və digər pis rəftar formaları ilə bağlı hüquqi öhdəliklər*. BMT İQK-da dövlətlərin işgəncələrin qarşısını almaqdan və buna görə məsuliyyət daşıyanları cəzalandırmaqdan ibarət pozitiv öhdəliyi qeyd olunur. Belə halların qarşısının alınmasının mühüm rolu ATƏT öhdəliklərində və İşgəncələrin qarşısının alınmasına dair Avropa Konvensiyasında (İQAK) açıq-aydın əks olunub.[49] Konkret olaraq, BMT İQK dövlətlərdən tələb edir ki, hətta rəsmi şikayət verilmədikdə belə, işgəncə və ya digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarla bağlı araşdırmalar aparsınlar. Bundan başqa, fərdlər şikayət vermək hüququna və şikayətlərinin araşdırılması hüququna və onlara qarşı hər hansı sonrakı təhdidlərdən və ya pis rəftardan müdafiə olunmaq hüququna malikdirlər.[50] İşgəncələrə və ya digər pis rəftar formalarına qarşı şikayətlər vermək hüququ və həmin şikayətlərə dərhal baxılması hüququ həmçinin ATƏT öhdəliklərində də qeyd edilib.[51]

Bundan başqa, BMT-nin İşgəncələr üzrə xüsusi məruzəçisi bildirib ki, həbs edilmiş şəxs, onun qohumu və ya müdafiəçisi işgəncə ilə bağlı şikayət verdikdə, bütün hallarda araşdırma aparılmalıdır.

[49] İQAK, Avropa Şurası, Avropa Müqavilələri Seriyaları, *ETS* № 126; ATƏT öhdəlikləri, o cümlədən Kopenhagen Sənədi (1990-cı il), 16-cı bənd, Budapeşt Sənədi (1994-cü il) və Avropa təhlükəsizliyinə dair İstanbul Xartiyası (1999-cu il).
[50] BMT İQK-nın 12, 13 və 16-cı maddələri.
[51] Moskva Sənədi (1991-ci il), 23.1-ci bənd (ix və x).

Üstəlik, işgəncə barədə şikayətlərə dərhal baxılmalı və araşdırmalar işgəncəyə məruz qaldığı iddia edilən zərərçəkənə qarşı ibtidai istintaqı və ya cinayət təqibini həyata keçirən orqanla heç bir əlaqəsi olmayan müstəqil orqan tərəfindən aparılmalıdır.[52]

AİHM bildirib ki, dövlətlər işgəncə barədə bütün "mübahisələndirilə bilən iddiaları" araşdırmağa borcludurlar və bu, səmərəli hüquqi müdafiə vasitələrinə malik olmaq hüququndan və işgəncə aktlarından müdafiə olunmaq hüququndan irəli gəlir.[53] AİHM-in presedent hüququna əsasən, "fərd dövlət nümayəndələri tərəfindən ciddi şəkildə pis rəftara məruz qaldığı barədə mübahisələndirilə bilən iddia irəli sürürsə, dövlət orqanları məsuliyyət daşıyanların müəyyən edilməsi və cəzalandırılması ilə nəticələnə bilən səmərəli və müstəqil rəsmi araşdırma aparmağa, o cümlədən şahid ifadələrini almağa və məhkəmə sübutlarını toplamağa borcludurlar".[54]

*Hakimlər çox vaxt pis rəftar barədə iddialarla bağlı araşdırma aparılmasını təmin etmirlər.* Azərbaycanın yuxarıda qeyd edilmiş öhdəliklərinə əsasən, məhkəmə orqanları işgəncələrə və ya digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara heç bir halda haqq qazandırılmamasını təmin etməkdən ibarət pozitiv və mütləq vəzifə daşıyırlar. Bundan başqa, qanun dövlət orqanlarından tələb edir ki, etirafların alınması üçün işgəncədən istifadə olunmamasını və bu cür məcburiyyət altında alınmış etirafların məhkəmələrdə sübut qismində qəbul edilməməsini təmin etsinlər. Müvafiq olaraq, hakimlərin işgəncə və ya digər pis rəftar formaları barədə bütün iddiaları araşdırmaqdan ibarət pozitiv öhdəliklərini yerinə yetirmələri önəmlidir. Bununla belə, Layihə qrupu müşahidə edib ki, bir çox məhkəmə iclasında müdafiəçilər və təqsirləndirilən şəxslər pis rəftar barədə iddiaları hakimlərin diqqətinə çatdırıblar. Bir çox hallarda hakim belə ciddi iddiaların yetərincə araşdırılmasını təmin etməyib. Bəzi hallarda Layihə qrupu məlumat verib ki, hakim hətta təqsirləndirilən şəxsi pis rəftara məruz qoyduğu iddia edilən və təqsirləndirilən şəxsin iddiaları məhkəmə prosesində sübut olunacağı təqdirdə şübhəli şəxsə çevrilə biləcək polis əməkdaşlarını şahid qismində dindirmək üçün məhkəməyə dəvət etməyib.

*Potensial olaraq qəbuledilməz sübutlardan və şübhə altına alına bilən məhkəmə ekspertizası sübutlarından istifadə.* Azərbaycan qanunvericiliyi BMT İQK-nin nümunəsini qəbul edərək nəzərdə tutur ki, zorakılıq, hədə-qorxu, aldatma, işgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan hərəkətlərin tətbiq edilməsi yolu ilə əldə edilmiş məlumatlar, sənədlər və digər əşyalar sübut kimi

---

[52] İşgəncələr üzrə xüsusi məruzəçinin hesabatı, BMT Sənədi, *Doc A/56/156*, iyul 2001-ci il, 39(d) bəndi.
[53] *Assenov Bolqarıstana qarşı*, AİHM-in 28 oktyabr 1998-ci il tarixli qərarı; *Aksoy Türkiyəyə qarşı*, AİHM-in 18 dekabr 1996-cı il tarixli qərarı.
[54] *Ribiç Avstriyaya qarşı*, AİHM-in 4 dekabr 1995-ci il tarixli qərarı; *Aksoy Türkiyəyə qarşı*, AİHM-in 18 dekabr 1996-cı il tarixli qərarı; *Assenov Bolqarıstana qarşı*, AİHM-in 28 oktyabr 1998-ci il tarixli qərarı; *Kurt Türkiyəyə qarşı*, AİHM-in 25 may 1998-ci il tarixli qərarı; *Çakıcı Türkiyəyə qarşı*, AİHM-in 8 iyul 1999-cu il tarixli qərarı; *Akdeniz və başqaları Türkiyəyə qarşı*, AİHM-in 31 may 2001-ci il tarixli qərarı.

qəbul edilə bilməz.[55] Müvafiq olaraq, hər hansı sübutun zorla, işgəncə və ya digər pis rəftar formalarının tətbiqi vasitəsilə əldə edildiyini güman etmək üçün əsaslı səbəblər olduqda, hakimlər həmin sübutu, xüsusən də təqsirləndirilən şəxsin təqsirini etiraf etməsi barədə ifadələrini nəzərdən keçirməməlidirlər.

Barəsində Layihə qrupunun məlumat verdiyi bəzi işlərdə hakimlər təzyiq altında alındığı iddia edilən sübutların qəbuledilənliyini sual altına almayıblar və çox vaxt təqsirləndirilən şəxsin ibtidai istintaqdakı ifadələrinə istinad ediblər, halbuki onlar məhkəmə iclasında verilən ifadələrlə ziddiyyət təşkil edib.[56] Məsələn, Layihə qrupunun müşahidələrinə əsasən, bəzi məhkəmə iclaslarında hakimlər aparılmış məhkəmə ekspertizalarının düzgün olmayan nəticəyə səbəb ola biləcək qeyri-obyektivliyinə və qərəzliliyinə qarşı müdafiəçinin etirazlarına reaksiya verməyiblər və yeni ekspertizaların keçirilməsi barədə vəsatətləri rədd ediblər. Barəsində məlumat verilən eyni sayda məhkəmə işlərində təqsirləndiriləm şəxsin üzərində pis rəftarın gözlə görünən izləri olmasına baxmayaraq, məhkəmə ekspertizalarının rəylərində təqsirləndiriləm şəxsin üzərində heç bir pis rəftar əlamətinin olmadığı göstərilib.

Müdafiəçilər həmçinin pis rəftar barədə iddiaların yer aldığı bir sıra məhkəmə iclaslarında tibbi ekspertizaların keyfiyyətini, habelə dövlət orqanları tərəfindən aparılmış məhkəmə ekspertizalarının müstəqilliyini və obyektivliyini sual altına alıblar. Onların sözlərinə görə, belə ekspertizalar təqsirləndiriləm şəxsə yetirilən hər hansı xəsarətləri tam qiymətləndirə biləcək dərəcədə hərtərəfli aparılmır.

*Müsbət və mənfi tendensiyaların qısa icmalı.* 2010-cu ildə toplanmış məlumatlar pis rəftar barədə səsləndirilən iddiaların araşdırılması üzrə məhkəmə praktikasında, yaxud pis rəftar nəticəsində əldə edildiyi iddia olunan sübutların qəbulu məsələsində nöqsanların olduğunu aşkara çıxartdı. Bundan başqa, Layihə qrupu məhkəmə ekspertizasının sübutlarının müstəqil və qərəzsiz şəkildə təqdim edilməsində çatışmazlıqlar olması barədə məlumat verib.

---

[55] CPM-in 125.2.2-ci maddəsi və BMT İQK-nın 15-ci maddəsi.

[56] Məsələn: *Hakim*: Sizin ifadəniz ibtidai istintaq mərhələsində verdiyiniz ifadəyə ziddir. Siz hər hansı təzyiqə məruz qalmısınızmı ? *Təqsirləndirilən şəxs*: Bəli, mənə qarşı təzyiq olub. *Hakim*: Əgər Siz təqyizqlə üzləşsəydiniz, Sizin barənizdə terrorizm ittihamları irəli sürülərdi, amma Siz həmin maddə üzrə ittiham olunmursunuz.

***

*Təqsirləndirilən şəxs*: Müstəntiq məni ibtidai istintaq dövründə verdiyim ifadəni təsdiq etməyə məcbur etdi. *Hakim*: Siz müvəqqəti saxlama yerində qalırsınız və ifadələriniz inandırcı görünmür. *Təqsirləndirilən şəxs*: Mən Sizdən təkidlə xahiş edirəm ki, bu məsələ ilə bağlı tədbirlər görəsiniz.

***

*Təqsirləndirilən şəxs*: Onlar məni üç gün çılpaq vəziyyətdə asılmış halda saxladılar. Onlar mənə işgəncə verdilər. Xahiş edirəm, imkan yaradın, mən danışmalıyam; mən şahidlərimi çağırmalıyam. Mən faciələrimi bölüşməliyəm. *Hakim*: Siz pis rəftarla bağlı məsələləri ifadə verərkən qaldırmalısınız. Yalnız o zaman biz ekspertiza təyin edə bilərik.

***9. Əsaslandırılmış qərarların çıxarılması hüququ***

*Hakimlərin qərarlarını əsaslandırmaqdan ibarət hüquqi öhdəliyi.* AİHK-in 6-cı maddəsinin 1-ci bəndində yer alan "işin ədalətli araşdırılması" anlayışı hakimlərdən tələb edir ki, qərarlarını əsaslandırsınlar. Qərarların əsaslandırılmasının funksiyalarından biri tərəflərə onların fikirlərinin dinlənildiyini nümayiş etdirməkdir. Bundan əlavə, əsaslandırılmış qərar iş üzrə tərəfin həmin qərardan şikayət etməsinə və şikayətə apellyasiya orqanı tərəfindən baxılmasına imkan verir. Yalnız əsaslandırılmış qərarın çıxarılması ədalət mühakiməsinin həyata keçirilməsi üzərində ictimai nəzarətə imkan yaradır.

*Hakimlər qərarlarını əsaslandırmırlar.* Layihə qrupu məlumat verib ki, bəzi işlərdə hakimlər tərəflərin məhkəmə prosesində təqdim etdiyi vəsatətlərdə və arqumentlərdə qaldırılan və hakimlərin cavabını tələb edən məsələləri nəzərdən keçirməyiblər. Müşahidəsi aparılmış işlərin çoxunda vəsatətləri rədd edərkən hakimlər hər hansı tutarlı əsas gətirməyiblər. Lakin nəzərdən keçirilən bu işlərin kontekstini nəzərə aldıqda, belə görünür ki, sözügedən vəsatətlər işin ədalətli həlli üçün həlledici əhəmiyyət daşıyıb və bəzi hallarda sübutların çatışmaması səbəbindən cinayət işinə xitam verilməsi ilə də nəticələnə bilərdi. Bu sözlər xüsusən hazırlıq iclaslarına aiddir, çünki onlar məhkəmə prosesinin digər mərhələlərində təqsirləndirilən şəxsin ədalətli məhkəmə araşdırması ilə bağlı ən fundamental hüquqlarının, o cümlədən vəkillə səmərəli şəkildə təmin olunmaq hüququnun və bəraətverici sübutların təqdim edilməsi hüququnun təmin edilməsi baxımından məhkəmə prosesinin mühüm mərhələsini təşkil edir.

*Qərarların yazılı şəkildə əsaslandırılmaması apellyasiya şikayəti verilməsinə maneədir.* 2010-cu ildə toplanmış məlumatlara əsasən, Layihə qrupu qeyd edib ki, bir çox hallarda məhkəmədə hakimlərin elan etdiyi qərarların əsaslandırma hissəsi mövcud olmayıb. Apellyasiya şikayəti müddətinin axımının məhkəmə qərarının elan olunduğu tarixdən başlandığını nəzərə alsaq, təqsirləndirilən şəxs məhkum olunmasının əsas səbəblərindən xəbərdar olmalıdır ki, səmərəli apellyasiya şikayəti verə bilsin. Müşahidə etdiyi məhkəmə iclaslarının yarısından çoxunda Layihə qrupu qeyd edib ki, daxili qanunvericiliyə əsasən bunun məcburi şərt olduğuna baxmayaraq, hakimlər qərarların tam mətnini təqsirləndirilən şəxslərə elan etməyiblər və məhkumluğun səbəbləri barədə hər hansı məlumatı oxumadan yalnız sanksiyalara aid hissələri elan ediblər.

*Müsbət və mənfi tendensiyaların qısa icmalı.* Aparılan müşahidələrə əsasən, Layihə qrupu hesab edir ki, qərarların çoxunda daxili qanunvericiliyin və ədalətli məhkəmə araşdırmasına dair beynəlxalq standartların tələb etdiyi kimi tutarlı və dolğun əsaslandırmalar olmur. Üstəlik, Layihə qrupu müşahidə edib ki, işlərin çoxunda qərarlar məhkəmədə yalnız qismən elan olunub; bəraət hökmlərinin

faizi (1%) və ittihamı təsdiq edən yetərincə sübutların olmaması səbəbindən hakimlərin məhkəmə işlərinə xitam verilməsi barədə qərarlarının faizi (1%) kifayət qədər aşağı olmaqda davam edir. Bununla belə, Layihə qrupu müsbət məqam kimi bunu qeyd edir ki, əvvəlki hesabat dövrləri ilə müqayisədə ittiham tərəfinin təqdim etdiyi sübutların yetərli olmaması səbəbindən hakimlərin məhkəmə işlərinə xitam verilməsi barədə qərarlarının ümumi sayında bir qədər irəliləyiş var.

**18-ci cədvəl. Müqayisəli Diaqram: Məhkəmə Qərarlarının Elan Olunması**



**19-cu cədvəl. Məhkəmə Qərarlarının Müqayisəli Diaqramı**




## IV. Tövsiyələr

Bakı Ofisi ədalətli məhkəmə araşdırması standartları ilə bağlı ATƏT öhdəliklərinə və müvafiq beynəlxalq və daxili öhdəliklərə uyğun olaraq səmərəli ədalət mühakiməsi sisteminin inkişafını təşviq etməkdə Azərbaycan Respublikasına yardım göstərmək üçün Layihə qrupunun 2010-cu ilə aid yuxarıdakı qeydlərini təqdim edir. Bu məqsədlə Ofis aşağıdakı tövsiyələri təklif edir və onların yerinə yetirilməsində bütün maraqlı tərəflərə köməyini davam etdirməyə hazırdır.

**Məhkəmə-Hüquq Şurasına və məhkəmə orqanlarına**

1. *Hakimlərin məsuliyyətinin artırılması və işlərin yaxşı yerinə yetirilməsinin mükafatlandırılması*[57]. Ofis tövsiyə edir ki, Məhkəmə-Hüquq Şurası vəzifələrini tətbiq edilən daxili və beynəlxalq qanunvericiliyə uyğun olaraq yerinə yetirməmələri ilə bağlı hakimlərə qarşı

[57] Hesabat dövründə Məhkəmə-Hüquq Şurası 8 hakim vəzifəsində yüksəldillərək Ali Məhkəməyə, 34 hakim isə Apellyasiya Məhkəmələrinə hakim təyin edilmişlər. Fəaliyyətlərində yol verdikləri pozuntulara görə 18 hakim vəzifəsindən azad edilmiş, 7 hakim isə intizam məsuliyyətinə cəlb edilmişdir.

şikayətlər lazımi qaydada araşdırmalı və gələcəkdə bu kimi ədalətli məhkəmə araşdırması pozuntuların yenidən baş verməsinin qarşısının alınmasında çəkindirici vasitə qismində intizam tədbirləri səmərəli şəkildə tətbiq edilməsini davam etdirməlidir. Məhkəmə aparatı üzvlərinin həmçinin öz vəzifələrini səylə yerinə yetirməyə həvəsləndirilməsi və gündəlik işlərində ədalətli məhkəmə araşdırması standartlarına ardıcıl olaraq riayət etdikdə mükafatlandırılması məqsədəmüvafiqdir. .

2. *Hakimlərə əlavə tövsiyələrin verilməsi.* Ali Məhkəmənin Plenumuna məsləhət görülür ki, tətbiq edilən daxili və beynəlxalq qanunvericiliyə, AİHM-in presedent hüququna və mütərəqqi təcrübələrə uyğun olaraq, ədalətli məhkəmə araşdırması standartlarına riayət edilməsini necə yaxşılaşdırmaq barədə aşağı məhkəmələrin hakimləri üçün istiqamətverici qərarların qəbulunda öz rəhbər rolunu artırsın.

**Vəkillər Kollegiyasına**

1. *Müdafiəçilərin məsuliyyətinin artırılması və işlərin yaxşı yerinə yetirilməsinin mükafatlandırılması.* Eynilə, Vəkillər Kollegiyasına məsləhət görülür ki, müdafiəçilərin vəzifələrinin icrasına görə məsuliyyət daşımaları üçün özünün nəzarət funksiyalarının ciddiliyini artırsın. Müdafiəçilərin vəzifələrinin icrasına onların məhkəmədə öz işlərini yerinə yetirmələri və tətbiq edilən daxili və beynəlxalq qanunvericiliyə riayət etmələri daxildir.

2. *İxtisaslı müdafiəçilərin sayının artırılması.* Vəkillər Kollegiyasına məsləhət görülür ki, ixtisaslı müdafiəçilərin sayının artırılmasına, mütəmadi və ixtisaslaşmış təlimlərin keçilməsi və digər imkanların yaradılması vasitəsilə onların bacarıqlarının və peşəkarlıqlarının yaxşılaşdırılmasına yönələn səylərini artırsın. Bundan başqa, Ofis məsləhət görür ki, Vəkillər Kollegiyasının üzvlüyünə nail olmaq üçün minimal bacarıqlar müdafiəçilərin rolu və işinin əsas prinsipləri barədə bilikləri, məhkəmədə hüquqi arqumentlər irəli sürmək bacarığını, o cümlədən şahidlərin dindirilməsi metodlarını bilməyi və yazılı arqumentlərin hazırlanması bacarığını, etik davranışı, eləcə də ədalətli məhkəmə araşdırması standartları ilə bağlı tətbiq edilən daxili və beynəlxalq qanunvericilik barədə bilikləri özündə ehtiva etsin.

3. *Hüquqi yardım sistemində islahat aparılması.* Vəkillər Kollegiyasına məsləhət görülür ki, zəruri maliyyə yardımının göstərilməsinə görə cavabdeh olan dövlət orqanlarının dəstəyi ilə hüquqi yardım sisteminin səmərəliliyini artırmaq və ədalət maraqları naminə vəkillərin dövlət hesabına təyin olunduğu işlərdə hüquqi təmsilçiliyin keyfiyyətinin qaldırılması üçün həmin sistemdə hərtərəfli islahat aparsın. Daha səmərəli hüquqi yardım sistemi məhkəmə prosesində

təqsirləndirilən şəxslər üçün keyfiyyətli pulsuz hüquqi təmsilçiliyi təmin etmiş olar və dövlət hesabına təyin olunan vəkillərə prosesin bütün mərhələlərində və Azərbaycanın bütün yurisdiksiyalarında məhkəmə proseslərində davamlı iştiraklarına görə ağlabatan kompensasiyanı təmin etmiş olar.

**Dövlət hakimiyyəti orqanlarına, xüsusilə də Maliyyə Nazirliyinə**

*Vəkillər Kollegiyasının gücləndirilməsinə dəstək verilməsi.* Yuxarıda Vəkillər Kollegiyasına aid 3 saylı tövsiyədə qeyd olunduğu kimi ədalət maraqları naminə vəkillərin dövlət hesabına təyin olunduğu işlərdə hüquqi təmsilçiliyin keyfiyyətinin qaldırılması üçün hökumət də məsuliyyət daşıyır. Buna görə də hökumətə tövsiyə edilir ki, hüquqi təmsilçiliyin keyfiyyətinin artırılması üçün Vəkillər Kollegiyasına lazımi maliyyə dəstəyi göstərsin.

**Parlamentə**

*Qanunvericilik islahatlarının dəstəklənməsi.* Yenə də 3 saylı tövsiyə ilə bağlı olaraq, Ofis məsləhət görür ki, Parlament məhkəmələrdə səmərəli hüquqi təmsilçiliyin təmin edilməsi üçün lazımi qanunvericilik islahatlarını dəstəkləsin. Buraya funksional hüquqi yardım sistemini təmin edilməsi üçün Cinayət Prosessual Məcəlləsi və Vəkillər və vəkillik fəaliyyəti haqqında qanun daxildir.